Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

16 APREL 2020-ci il

№ 58 (4189)

Qiymət 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# AZƏRBAYCANA MÜNASİBƏTDƏ AŞPA TARİXİNİN ƏN RÜSVAYÇI FAKTI - QONDARMA «DQR»DƏ QONDARMA «SEÇKİ»YƏ DÜNYADA TƏK AŞPA SUSDU...

■ səh. 8 ■

Koronavirusla uğurlu mübarizə öz yerində - struktur islahatlarının davam etdiriləcəyi barədə qətiyyətli anons verildi...

■ səh. 7 ■

Yardım üçün müraciət edən işsizlərin sayı Prezidentə şübhəli gəldi - "Araşdırmaq imkanları var"

■ səh. 4 ■

Prezident Azərbaycan banklarına növbəti mütərəqqi yolu göstərdi - biznesə daha böyük dəstək...

■ səh. 13 ■

Virusdan sonrakı böhranın 2008-ci ildən də ağır olacağını Prezident də təsdiqlədi - Azərbaycan nələrə arxayın ola bilər...

■ səh. 3 ■

Ermənistan pandemiya dövründə işğal altında saxladığı ərazilərdə "seçki" keçirməklə növbəti dəfə özünü zərbə altında qoydu - Azərbaycanın haqlı mövqeyi gündəmdə...

■ səh. 9 ■

37 min nəzərdə tutulmuşdu, 50 minə çıxdı - Prezident məmurlara ictimai iş yerlərini artırmağın yolunu izah etdi

■ səh. 12 ■

Prezident özünüməşğulluq meyarlarının dəqiqləşdirilməsini zəruri saydı - "Ədalət olsun"

■ səh. 4 ■

Operativ Qərargah koronavirusla bağlı ilk dəfə pozitiv statistika açıqladı

■ səh. 5 ■




## Azərbaycan hökumətinə iki mühüm tapşırıq - Nələr ixtisar olunacaq, əlavə pul haradan gələcək...

■ səh. 3 ■



Prezident Əliyev Ermənistanı Azərbaycanla uğursuz müqayisə edən Paşinyanın «dərsini verdi»

■ səh. 2 ■



2013-cü il Prezident seçkiləri ərəfəsində radikal müxalifətin taktikası barədə yeni mülahizələr...

■ səh. 10 ■

Azərbaycanda siyasi konfiqurasiyanın yeni mərhələsi - müxalifət ölkə idarəçiliyinə daha sıx cəlb olunacaq

■ səh. 8 ■

■ səh. 6 ■

Əsl insan, alim və həkim ömrü



■ səh. 11 ■

Dünyanın koronavirus böhranından Azərbaycanın götürəcəyi dərs və ibrətlər - Prezident nəyi nəzərdə tutdu...



■ səh. 13 ■

Koronavirusla mübarizə tarixində Azərbaycan üçün ilk - sağalanların sayı yoluxanları ötdü



■ səh. 15 ■

Sosial xidmət işçilərinin özlərinin də təminatı ikiqat yaxşılaşdırıldı - Azərbaycanda növbəti sosial layihə...



■ səh. 10 ■

Koronavirusun daha geniş yayılması üzərində radikal müxalifətin nə kimi "maraq planları" var...



# Prezident Əliyev Ermənistanı Azərbaycanla uğursuz müqayisə edən Paşinyanın "dərsini verdi"

***Qasım Hacıyev:** ”Prezident öz çıxışlarında Azərbaycandan bütün sahələrdə qat-qat zəif olan Ermənistanın, onun baş nazirinin yalan, saxta siyasətini, fikirlərini hər zaman ifşa edir”*

**Bu gün nəinki Cənubi Qafqazda, eləcə də bütün dünyada ayrı-ayrı sahələrdə nail olduğu uğurlara görə sayılıb seçilən, yüksək qiymətləndirilən Azərbaycan dövlətinin iqtisadi gücü onun daha da inkişaf etdiyini göstərən əsas amillərdən biridir.**

Son zamanlar Azərbaycanın daha da güclənməsi, böyük uğurlara imza atması, nailiyyətlərinin sırasının günü-gündən genişlənməsi, iqtisadi-siyasi baxımdan qazandığı qələbələr Ermənistan hökumətini ciddi narahat edir. Tarix səhnəsindən silinmək üzrə olan və səfalətin, aclığın, pandemiyanın, iqtisadi-siyasi böhranın içində boğulan Ermənistanın özünü Azərbaycanla müqayisə etməsi gülünc görünür.

Prezident İlham Əliyev cari ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfransda bir sıra məsələlərə toxundu.

Münhen Təhlükəsizlik Konfransından da danışan ölkə başçısı bu konfransın dünya miqyasında təhlükəsizliklə bağlı bir nömrəli konfrans olduğunu qeyd etdi. "...Bu dəfə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı imkan oldu ki, canlı efirdə həm tarixi həqiqətlər, həm münaqişə ilə bağlı həqiqətlər geniş auditoriyaya çatdırılsın. Çünki bu auditoriya milyonlarla insanı əhatə edir. Nəzərə alsaq ki, tarixdə ilk dəfə olaraq Azərbaycan və Ermənistan rəhbərləri canlı efirdə debatda idilər. Bu debatlara çox böyük maraq var idi. Bu, bir daha göstərdi ki, erməni təbliğatı saxtakarlıq, yalan, mifologiya üzərində qurulub. Bizim sözümüz isə tarixə, tarixi sənədlərə, tarixi reallıqlara və beynəlxalq hüquqa əsaslanır. Ona görə Münhen Təhlükəsizlik Konfransının yekunları Ermənistan təbliğatını darmadağın edib və bunların uzun illər ərzində uydurduğu yalan məlumatlara son qoyub. Əlbəttə, istisna edilmir ki, bu cəhdlər bundan sonra da göstəriləcək, ancaq artıq buna heç kim inanmayacaq. Ona görə hesab edirəm ki, həm münaqişə ilə bağlı, həm Cənubi Qafqazın tarixi ilə bağlı keçirilmiş bu tədbir bizim böyük uğurumuzdur. Azərbaycan xalqı mənə göndərilən on minlərlə mesajlarda, məktublarda öz dəstəyini bir daha ifadə etmişdir. Münaqişə ilə bağlı onu da bildirməliyəm ki, Ermənistan təbliğatına və ümumiyyətlə, Ermənistanın münaqişə ilə bağlı mövqeyinə növbəti böyük zərbə bu yaxınlarda vuruldu. Bu zərbəni, əslində, onlar özləri özlərinə vurdular. Əlbəttə ki, bizim məqsədyönlü fəaliyyətimiz, beynəlxalq təşkilatlarla yaranmış əlaqələr bu zərbəni daha da gücləndirdi. Söhbət qondarma "Dağlıq Qarabağ Respublikası"nda keçirilmiş qondarma "prezident"in qondarma "seçkilər"ndən gedir. Bu "seçkilər" bir daha göstərdi ki, bu qanunsuz xunta rejimini heç kim tanımır".



*”Bu gün Ermənistan Cənubi Qafqazın tamamilə zəif, gücsüz bir dövlətidir”*

Qeyd edək ki, bundan əvvəlki çıxışlarından birində ölkə başçımız Ermənistan baş nazirinin öz ölkəsinin nin dırnaqarası uğurlarını Azərbaycanın uğurları ilə müqayisə etmək iddiasında olduğunu bildirmişdi. "...Son vaxtlar siz də bunu görürsünüz, Ermənistanın baş naziri öz ölkəsinin dırnaqarası uğurları haqqında danışarkən Ermənistanı Azərbaycanla müqayisə edir. Onun gəldiyi qənaətə görə, Ermənistan Azərbaycanı bir çox parametrlər üzrə qabaqlayır. Bəri başdan bildirirəm və bunu heç sübut etməyə ehtiyac yoxdur ki, belə bir fərziyyənin heç bir əsası yoxdur. Azərbaycan Ermənistanı bütün əsas parametrlər üzrə böyük fərqlə qabaqlayır" - deyə ölkə başçımız vurğulamışdı.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan faşizmə qarşı mübarizə aparır, Ermənistan isə faşizm canilərinə heykəl qoyur, onları qəhrəmanlaşdırır. Azərbaycanın idman uğurlarının da Ermənistandan qat-qat üstün olduğunu deyən Prezident bu sahədəki uğurlarımızı da qeyd etmişdi. Yəni Paşinyan hər dəfə Ermənistanın "uğurları"nı Azərbaycanın real uğurları ilə müqayisə etmək istəyir, hər dəfə də Azərbaycan Prezidenti onun yalanını ifşa edir, ona dərs verir.

Keçirdiyi son müşavirədə də ölkə başçısı İlham Əliyev Ermənistanın həyata keçirdiyi saxta siyasətə də toxunaraq, onunla bağlı bəzi məqamları xatırladaraq, Paşinyana yenidən bir dərs verdi.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev bildirdi ki, həm Prezident İlham Əliyevin rəhbərliyi ilə cari ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfransda, həm də bundan əvvəlki müşavirələrdə Azərbaycan iqtisadiyyatının, Azərbaycan siyasətinin inkişafı təhlil edilib. "Prezident İlham Əliyevin sədrliyi ilə cari ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfransın çox böyük əhəmiyyəti var və bu konfransda aktual məsələlər müzakirə olundu. Cənab Prezident bu videomüşavirədə bir çox məsələyə toxundu. Pandemiya ilə mübarizədən tutmuş, Azərbaycanın iqtisadi inkişafı, qarşıda duran vəzifələr, Dağlıq Qarabağ problemi, Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi təxribatlar, lakin bu təxribatların tez bir zamanda qarşısının alınmasından danışdı. Paşinyanın uğursuz siyasəti dizləri boşalmış Ermənistanı daha da çökdürdü. Münhen Təhlükəsizlik Konfransında biabır olan Paşinyana İlham Əliyev böyük bir tarixi dərs verdi. Paşinyanın küçədən hakimiyyətə gəldiyi məlumdur. Küçə psixologiyası ilə dövləti idarə edən Paşinyan son illər Ermənistana böyük uğursuzluqlar gətirdi. Pandemiya dövründə Ermənistan ən ağır durumdadır. Bu gün Ermənistan nəinki pandemiya ilə mübarizədə, hətta cənab Prezidentin təbirincə desək, heç bir sahədə Azərbaycanla müqayisə oluna bilməz. Ermənistan faşizmin beşiyi başında dayanır, Hitler əlaltılarına heykəl qoyur, Azərbaycan isə faşizmə qarşı mübarizə aparır. İdman, mədəniyyət, iqtisadiyyat, səhiyyə, eləcə də digər sahələrdən Azərbaycan Ermənistandan çox irəlidədir. Yəni Ermənistan Azərbaycanla heç cür müqayisə edilə bilməz. Azərbaycanda koronavirusla mübarizə sahəsində nümunəvi işlər görülüb. Amma Ermənistan heç bir iş görmür.

Bu gün pandemiya içində məhv olan Ermənistan başsız bir ölkə kimi görsənir. Prezident öz çıxışlarında Azərbaycandan bütün sahələrdə qat-qat zəif olan Ermənistanın, onun baş nazirinin yalan, saxta siyasətini, fikirlərini hər zaman ifşa edir. Bu gün Ermənistan Cənubi Qafqazın tamamilə zəif, gücsüz bir dövlətidir, bu gün onun Azərbaycanla müqayisə olunmaq üçün heç bir gücü, imkanı yoxdur.

Ermənistan qondarma "DQR"də keçirdiyi saxta seçkilərlə bir daha beynəlxalq aləmdə özünü nüfuzdan saldı. Cənab Prezident bu faktı da xatırlatmaqla bir daha Pasinyanı, onun saxta hakimiyyətini ifşa etdi. Pasinyan İlham Əliyevin ona verdiyi dərslərdən nəticə çıxarmalıdır, Ermənistan işğal altında saxladığı Azərbaycan torpaqlarında oynadığı saxta oyunlara son qoymalıdır" - deyə Q.Hacıyev vurğuladı.

***İradə SARIYEVA***

# Azərbaycan hökumətinə iki mühüm tapşırıq - Nələr ixtisar olunacaq, əlavə pul haradan gələcək...

## Ruslan Atakişiyev: "İkinci-üçüncü dərəcəli xərclər, kütləvi tədbirlər ixtisar ediləcək"

**2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan müşavirədə Prezident İlham Əliyev bir sıra məqamlara toxunub. O cümlədən, müşavirədə hökumətə iki tapşırıq verib. Bunlar prioritet təşkil etməyən xərclərin ixtisar edilməsi və yeni gəlir mənbələri aşkar olunması.**



Ölkə başçısının sözlərinə görə, vəsaitin xərclənməsinə çox ciddi nəzarət mexanizmi tətbiq olunmalıdır: "Hökumətə tapşırıq verirəm, xüsusilə Baş nazirə, Maliyyə nazirinə və İqtisadiyyat nazirinə ki, dövlət xərclərinə yenidən baxılsın və prioritet təşkil etməyən xərclər ixtisar edilsin. Eyni zamanda, vəsaitin xərclənməsinə çox ciddi nəzarət mexanizmi tətbiq olunmalıdır. Bu məsələ ilə bağlı mən öz fikirlərimi bundan əvvəl də bildirmişdim. Son vaxtlar bu istiqamətdə müsbət dinamika göz qabağındadır və bunun nəticəsində biz həm keçən il, həm də bu ilin üç ayında büdcəmizə əlavə maliyyə vəsaiti daxil edə bilmişik. Ancaq hesab edirəm ki, burada hələ ehtiyatlar var, həm investisiya xərclərinə, eyni zamanda, cari xərclərə yenidən baxılmalıdır. Çünki bəzi hallarda cari xərclər şişirdilir".

Prezidentin fikrincə, yeni gəlir mənbələri aşkar olunmalıdır: "Hökumətə tapşırıram ki, yeni gəlir mənbələri aşkar edilməlidir. Yenə də demək istəyirəm ki, ehtiyatlar var, çoxdur. Son müddət ərzində bu ehtiyatların bir hissəsi artıq üzə çıxıb və büdcəyə daxilolmalar artır, keçən il və bu il. Keçən il büdcəyə proqnozdan əlavə bir milyard manatdan çox vəsait daxil edilibdir, bu ilin üç ayında 300 milyon manatdan çox. Ona görə bu məsələyə çox diqqətlə baxmaq lazımdır və təkliflər hazırlanmalıdır".

Maraqlıdır, yaranmış vəziyyətlə əlaqədar hansı xərclər ixtisar olunacaq və yeni gəlir mənbələri nələrin hesabına yaradılacaq?

*"Hansısa formada vergidən yayınan xidmətlər vergiyə cəlb edilməlidir"*

Sözügedən məsələyə aydınlıq gətirən İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin direktoru Ruslan Atakişiyev bununla bağlı bir sıra məqamlara toxundu: "İxtisar deyildikdə söhbət büdcədə ikinci və üçüncü dərəcəli xərclərdən gedir. Məsələ ondadır ki, büdcədə çoxsaylı xərc istiqaməti var. Məktəblərdə təmirdən tutmuş, digər cari xərclər bura daxildir. Yəni ikinci-üçüncü dərəcəli xərclər, kütləvi tədbirlər ixtisar ediləcək. Bütün bunların nəticəsində büdcəyə qənaət etmək mümkün olacaq. Hesab edirəm ki, müvafiq qurumlar 2020-ci ilin dövlət büdcəsini yenidən nəzərdən keçirməli və bəzi xərclər ixtisar edilməlidir. Çox güman ki, iyun ayında dövlət büdcəsinə yenidən baxılacaq. Ona görə də büdcəyə maddə-maddə baxılmalıdır. Xüsusən də tenderlərə diqqət edilməlidir.

Əsasən xərclər tenderlərdə şişirdilir. Şişirdilən xərclər tender vasitəsilə reallaşdırılır. Bu zaman vəsaitlərin büdcədən yayındırılması halları baş verir. Hesab edirəm ki, buna nəzarət olmalıdır. Bir müəssisə bir neçə tenderdə qalib olmamalıdır. Fikrimcə, yeni gəlir mənbələri deyəndə bunlar nəzərdə tutulur. Başqa bir tərəfdən, hansısa formada vergidən yayınan xidmətlər vergiyə cəlb edilməlidir. Bunlar aşkar olunmalı və nəzarət mexanizmi təkmilləşdirilməlidir".

*Vidadi ORDAHALLI*

# Virusdan sonrakı böhranın 2008-ci ildən də ağır olacağını Prezident də təsdiqlədi - Azərbaycan nələrə arxayın ola bilər...

## Firdovsi Şahbazov: "Tələb olunan tədbirlər vaxtında həyata keçirilərsə, ölkəmizin bu problemlərdən daha az itki ilə çıxması imkanları mövcuddur"

**"Pandemiyanın ölkə iqtisadiyyatına mənfi təsiri qaçılmazdır. Artıq aparıcı beynəlxalq maliyyə qurumları qeyd edirlər ki, bu pandemiyadan yarana biləcək və yaranmaqda olan böhran 2008-2009-cu ilin böhranından daha da ağır olacaq". Bunu Prezident İlham Əliyev 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan müşavirədəki çıxışında deyib.**



Dövlət başçısı qeyd edib ki, bunu Beynəlxalq Valyuta Fondunun rəhbərliyi də bildirib: "Eyni zamanda, biz bilirik ki, Beynəlxalq Valyuta Fonduna və Dünya Bankına 150-dən çox ölkə yardım üçün müraciət etmişdir. Yeni dünya birliyinin mütləq əksəriyyəti artıq yardıma ehtiyac duyur və buna görə müraciət edibdir. Azərbaycanın adı bu siyahıda yoxdur. Hesab edirəm ki, bu vəziyyətdən şərəflə çıxmağımız, - mən buna əminəm, - bir daha göstərəcək ki, bizim bütün addımlarımız düşünülmüş addımlardır və xalqımızın, dövlətimizin maraqlarına uyğun şəkildə atılan addımlardır".

Göründüyü kimi, Prezident də virusla əlaqədar dünyada iqtisadi böhranın olacağını qeyd etdi. Maraqlıdır, Azərbaycanın bu ağır böhrandan daha ağrısız keçməsi üçün nə kimi imkanlarımız var və bu məsələdə Prezidentin komandasından nə tələb olunur?

Məsələyə münasibət bildirən iqtisad üzrə fəlsəfə doktoru Firdovsi Şahbazov buna bir neçə aspektdən yanaşdı: "İndi bütün dünya ölkələrinin qarşısında üç əsas məsələ durur: birincisi, pandemiyaya qarşı effektiv mübarizə aparmaqla onun yayılmasının qarşısını almaq. İkincisi, pandemiyanın doğurduğu mövcud iqtisadi problemləri dəf etmək. Üçüncüsü isə postpandemiya dövründə yaranacaq iqtisadi böhranın nəticələrinin yumşaldılması və iqtisadi artımı təmin etmək. Hər üç məsələnin həlli ölkə üçün vacibdir. Problemlərin hər biri özlüyündə mürəkkəb və miqyaslı olduğundan, baş verənləri "üçlü böhran" da adlandırmaq olar. Bütün dünya ölkələri artıq hər üç istiqamət üzrə fəaliyyət proqramları qəbul edərək onları reallaşdırmağa çalışır. Bəs Azərbaycanda pandemiyaya və onun doğurduğu problemlərə qarşı mübarizə sahəsində vəziyyət necədir? Hökumətin postpandemiya dövründə yaranacaq iqtisadi böhranla bağlı proqramı varmı?".

Sözügedən məsələ ilə bağlı F.Şahbazov bunları dedi: "Hazırda pandemiya ilə əlaqədar ölkədə həyata keçirilən tədbirlər - xüsusi karantin rejiminin tətbiqi, pandemiyadan təsirlənən sahələrə, həmin sahələrdə fəaliyyət göstərən insanlara, həssas əhali qruplarına müxtəlif yardımların göstərilməsi üçün 2,5 milyard manatlıq paketin ayrılması hökumətin yaranan vəziyyətə adekvat addımlar atmağa çalışdığını göstərir. Bütün bunlarla yanaşı, pandemiyanın davam etdiyi müddətdə bu tədbirlərin davam etdirilməsi zəruridir. Həm də pandemiyadan zərər çəkmiş bütün sahələrin və şəxslərin bu proqramlarla əhatə olunmasına ehtiyac var. Həyata keçirilən tədbirlərdə, həmçinin, postpandemiya dövründə yaranacaq iqtisadi böhranın doğuracağı çətinliklərin neytrallaşması da nəzərə alınmalıdır. Problemlərin əhatə dairəsinin genişliyi və mürəkkəbliyi onlarla mübarizənin çətin olduğunu deməyə əsas verir. Lakin tələb olunan tədbirlər vaxtında həyata keçirilərsə, ölkəmizin bu problemlərdən daha az itki ilə çıxması imkanları mövcuddur. Əvvəla Azərbaycanın böhranlarla mübarizə sahəsində kifayət qədər təcrübəsi formalaşıb. 2015-2016-cı illərdə olmuş məlum böhranın nəticələrinin aradan qaldırılması üçün ölkədə əsasən qeyri-neft sektorunun və ixracyönümlü sahələrin inkişaf etdirilməsini nəzərdə tutan "Strateji yol xəritələri"nin qəbul olunması, reallaşdırılması ölkə iqtisadiyyatının imkanlarını xeyli genişləndirib. Digər tərəfdən, nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsi üçün ölkənin kifayət qədər valyuta ehtiyatı mövcuddur.

*"Qarşıdakı dövrdə həyata keçirilməsi zəruri olan əsas tədbirlərdən biri..."*

Qarşıdakı dövrdə həyata keçirilməsi zəruri olan əsas tədbirlərdən biri regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə bu sahədəki mövcud disproporsiyaları aradan qaldırmaqdır.

**Postpandemiya dövründə iqtisadi böhranın yaradacağı mənfi nəticələrin aradan qaldırılması ölkədə biznes mühitinin daha da yaxşılaşdırılmasını tələb edir. Bunun üçün, ilk növbədə, rəqabət məcəlləsinin qəbuluna nail olunmalıdır. Digər mühüm məsələ isə dövlət investisiyalarının regionların və iqtisadiyyatın sahələri üzrə optimal bölgüsünü nəzərdə tutan ayrıca dövlət proqramının qəbulu və həyata keçirilməsidir".**

*Vidadi ORDAHALLI*

# Yardım üçün müraciət edən işsizlərin sayı Prezidentə şübhəli gəldi - "Araşdırmaq imkanları var"

**Natiq Cəfərli:** *"İşsiz kimi qeydiyyatdan keçənlərin sayı daha da artacaq"*

**"Əlbəttə ki, biz, ilk növbədə, bu vəziyyətdən əziyyət çəkən vətəndaşların problemlərini həll etməliyik və edirik. Bu məqsədlə böyük məbləğdə vəsait ayrılıb, 600 mindən çox insan, hansı ki, pandemiyaya görə öz işini müvəqqəti olaraq itirib, dövlət tərəfindən dəstəklə təmin edilir.**

*"...hökumət tərəfindən bəzi addımlar atılmalıdır"*

Bu insanların maaşlarının əhəmiyyətli hissəsi dövlət tərəfindən ödənilir".

Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində keçirilən müşavirədə deyib. Prezident bildirib ki, işsizlərlə bağlı problemlər öz həllini tapır və işini itirənlər artıq öz adlarını kütləvi surətdə qeydiyyata salırlar: "Biz burada da çox diqqətli olmalıyıq, sui-istifadədən uzaq olmalıyıq. Bu həm vətəndaşlara aiddir, həm də dövlət orqanlarına. Doğrudan da işini itirmiş, yaxud da ki, işləməyən insanlara yardım göstərilməlidir. Çünki mənə verilən məlumata görə, son günlər ərzində müraciətlərin dinamikası çox sürətlidir və bu, müəyyən şübhələr doğurur. Dövlət orqanlarının kifayət qədər imkanı var ki, bu məsələ araşdırılsın və ehtiyacı olan insanlar dövlətdən yardım alsınlar".

İşsizlərə və işini itirənlərə yardım edilməlidir. Ancaq araşdırmalar zamanı məlum olub ki, son günlər müraciət edən şəxslərin sayı çoxalıb.

Məsələ ilə bağlı fikir bildirən iqtisadçı-ekspert Natiq Cəfərli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, işsiz kimi qeydiyyata düşmək istəyənlərin sayının çox olması normaldır: "İşsiz kimi qeydiyyata düşmək istəyənlərin sayının çox olması ilə bağlı hökumət tərəfindən bəzi addımlar atılmalıdır. İlk növbədə, hökumətin qərarında müəyyən dəyişiklik olunmalıdır. Bununla yanaşı, ayrılan vəsaitin həcmi artırılmalıdır".



Həmsöhbətimiz onu da əlavə etdi ki, videokonfrans şəklində keçirilən müşavirədən sonra Baş nazirin iştirakı ilə toplantı keçirilməlidir. Həmin toplantıda işsiz kimi qeydiyyata düşən və düşmək istəyənlərin sayı nəzərə alınıb proqrama dəyişiklik olunmalıdır.

**İqtisadçı hesab edir ki, işsiz kimi qeydiyyatdan keçənlərin sayı daha da artacaq: "Nəzərə almaq lazımdır ki, karantin rejimi bitəndən sonra da bütün iş yerlərinin dərhal açılması və iqtisadi aktivliyin artması mümkünsüzdür. Bu səbəbdən də yardım veriləcək müddətin uzadılmasına ehtiyac var. Yaxşı olar ki, yardım paketi 2 ay deyil, 4 ay olsun".**

*Günel CƏLİLOVA*

# Prezident özünüməşğulluq meyarlarının dəqiqləşdirilməsini zəruri saydı - "Ədalət olsun"

**Vüqar Bayramov:** *"Özünüməşğulluq layihəsi ilə bağlı təkmilləşdirmənin aparılmasına ehtiyac var"*

**Aprelin 15-də Prezident İlham Əliyevin iştirakı ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans keçirilib. Konfransda bir çox məsələyə toxunulub. O cümlədən, Prezident qeyd edib ki, 12 min insanın özünüməşğulluq proqramına cəlb edilməsi çox müsbət nəticədir.**

*"Pandemiya dövründə tək aqrar sektora deyil, digər sahələrə də..."*

Nəzərə alsaq ki, biz təqribən 3, 4, 5 minlə başlamışıq: "Amma giriş sözümdə dediyim kimi, - siz də bu barədə mənə məlumat vermisiniz, - təqribən on minlərlə tələbat var. Əlbəttə ki, bu tələbatın ödənilməsi asan məsələ deyil.

Çünki hər bir məsələyə ayrı-ayrılıqda baxılır, bəzi hallarda, bəzi insanların bu işlərə qabiliyyəti çatmır, bəzi insanlar vasitələri alıb sonra onları satırlar. Belə hallar da var və dünya praktikası var.

Mənə verilən məlumata görə, dünya praktikasında özünüməşğulluq proqramının uğur əmsalı, təqribən, 50 faiz ətrafındadır, Azərbaycana gəldikdə, bu, daha çoxdur. Ancaq bu proqrama cəlb olunan vətəndaşlar bilməlidirlər ki, əgər onlara verilmiş imkanlardan düzgün istifadə etməsələr, bu imkanı itirəcəklər və ikinci dəfə onlara bu şərait yaradılmayacaq. Ona görə xahiş edirəm, əgər kiməsə vasitə verilirsə, onu satmasın, ondan səmərəli şəkildə istifadə etsin ki, özü üçün davamlı, dayanıqlı gəlir mənbəyi yaratsın. Bizim əsas məqsədimiz budur ki, insanlar özləri üçün müstəqil gəlir mənbələri yaratsınlar və ailələrini saxlaya bilsinlər. Ona görə 12 min insanın imkanlarını araşdırmaq böyük vaxt tələb edir və burada meyarlar çox dəqiq ölçülüb-biçilməlidir ki, ədalət prinsipi tam təmin edilsin".

Məsələ ilə bağlı fikir bildirən millət vəkili Vüqar Bayramov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki,özünüməşğulluq proqramı sayəsində bir çox şəxs sahibkar statusu qazanıb:











**"Bu baxımdan özünüməşğulluq layihəsi ilə bağlı təkmilləşdirmənin aparılmasına ehtiyac var. Hesab edirəm ki, pandemiya dövründə özünüməşğulluq proqramına ayrılacaq vəsaitin həcmində artım olacaq. Proqramın mərhələli şəkildə təkmilləşdirilməsi çox vacibdir".**

Millət vəkili hesab edir ki, pandemiya dövründə tək aqrar sektora deyil, digər sahələrə də vəsait ayrılmasına ehtiyac var.

*Günel CƏLİLOVA*

**Azərbaycanda 56 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 53 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a verilən məlumata görə, hazırkı dövrədək ölkəmizdə 1253 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 404 nəfəri müalicə olunaraq sağalıb, 13 nəfər vəfat edib, 836 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir.**

# Operativ Qərargah koronavirusla bağlı ilk dəfə pozitiv statistika açıqladı




Həmin şəxslərdən 24 nəfərin vəziyyəti ağır, 27 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 75.397 test aparılıb.

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah koronavirusla bağlı KİV nümayəndələri üçün brifinq keçirib. "Trend"in məlumatına görə, Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov deyib ki, koronavirus infeksiyasının yayılması ilə bağlı ilk dəfə olaraq pozitiv statistika qeydə alınıb.

Onun sözlərinə görə, aprelin 12-dən sağalma yoluxmanı üstələyib: "Bu, pozitiv bir haldır. Aprelin 12-si ilk dəfə pozitiv nəticə qeydə alındı. Aprelin 13-də vəziyyət neqativ olsa da, az fərq oldu. 14-cü gün pozitiv nəticə əldə etdik. Ötən həftə durum sabit olub. Xəstələrin sayı 822-844 nəfər arasında dəyişib. Bu da vəziyyətin sabitliyini göstərir. Amma biz deyə bilmərik ki, belə davam edəcək. Son 5 gündə pozitiv neqativi əvəzləyir. Bu vaxta qədər belə deyildi, neqativ pozitivi üstələyirdi. Bu isə o deməkdir ki, karantin rejiminin nəticələri artıq var. Bu durum bizi ruhlandırır ki, karantin qaydalarına əməl edək".

"Sabitləşmənin davam etməsi istiqamətin müsbətə yönəlməsi deməkdir. Karantin müddətinin yaxın vaxtlarda bitməsi və tədrisin bərpa olunması hələ ki, müzakirə mövzusu deyil" - deyən İ.Məmmədovun sözlərinə görə, bu, virusa qalib gəlmək kimi başa düşülməməlidir: "Ola bilər ki, vəziyyət Azərbaycanda yaxşı olar. Amma bu o demək deyil ki, biz karantindən əvvəlki vəziyyətə qayıdaq və dərslər başlansın. Bu hələ bəlli deyil. Məktəblərin başlanması karantin rejimindən çıxdıqdan sonra mümkündür. Karantin müddətinin yaxın vaxtlarda bitməsi və tədrisin bərpa olunması hələ ki, müzakirə mövzusu deyil".

İ.Məmmədov deyib ki, aprelin 20-dən sonra xaricdə olan vətəndaşlar Azərbaycana gələ biləcəklər. Onun sözlərinə görə, Operativ Qərargah sərhədlərin açılması barədə düşünür:"Karantin yerlərimiz dolduğu üçün sərhədlər bağlandı. Aprelin 20-dən sonra xaricdən həftədə 300-400 nəfər qəbul etmək imkanı yaradılacaq. Əsasən Rusiyadan gələnlər gözlənilir. Bunun üçün ayın 17-dən "Evə gedirəm" portalı fəaliyyətə başlayacaq. Rusiyadan gəlmək istəyənlər bu portaldan qeydiyyatdan keçə bilərlər. Aprelin 20-dən sonra bu prosesə başlanacaq. Bundan sonra, Türkiyə və digər ölkələrdən də tədricən vətəndaşlar ölkəyə gətiriləcək. Gətirilən şəxslər 14-21 gün müddətinə karantində saxlanılacaq".

"Bugünkü vəziyyət göstərir ki, aprelin 20-dən sonra komendant saatının tətbiq edilməsi müzakirə edilmir" - deyən İ.Məmmədovun sözlərinə görə, Daxili İşlər Nazirliyi vətəndaşlarla gecələr küçəyə çıxmamağı tövsiyə edib: "Bəziləri işə getmək icazəsi olduğu halda, işdən sonra gecələr küçələrə çıxır. Bu icazədən sui-istifadə edən şəxslərə, gecələr küçələrdə lazım olmadan gəzənlərə tövsiyə olunub ki, axşam saatlarında ehtiyac olmadığı üçün evdən çıxmasınlar. Daxili İşlər Nazirliyinin bu tövsiyəsini komendant saatı kimi təqdim etmək düzgün deyil. Elə adamlar var ki, icazədən istifadə edib gecə saatlarında küçələrə çıxırlar. Həmin şəxslərə biz də tövsiyə edirik ki, gecələr küçələrə çıxmasınlar".

**Aktiv yoluxma yaşı - 50-60 və 30-40 yaşarası...**

Koronavirusa aktiv yoluxma əsasən 50-60 və 30-40 yaş arasında insanlardadır. Bunu isə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin İdarə Heyətinin sədri Ramin Bayramlı deyib.

Onun sözlərinə görə, bu günə qədər ümumilikdə 75 min 397 test keçirilib: "İndiyədək virusa 1250 yoluxma faktı aşkar edilib, onlardan 404 nəfər sağalıb. Hazırda 836 nəfər aktiv xəstə var. Onlardan 8 nəfəri reanimasiyadadır ki, həmin xəstələrdən 6-sı süni nəfəs aparatına qoşulub".

R.Bayramlı deyib ki, ölkədə 10 modul tipli xəstəxananın qurulmasına başlanıb. Bu gün tibb müəssisələrinin heç birində qıtlıq yaşanmır. Onun sözlərinə görə, onlardan 6-sı dövlət, 4-ü isə özəl xəstəxanadır: "Hazırda həmin xəstəxanaların tibbi heyətin hazırlığına başlanıb. Bunun üçün Çin, Türkiyə və digər ölkələrin təcrübəsi öyrənilir. Artıq tibb müəssisələri koronavirusla bağlı dərman və tibbi ləvazimatlarla təmin edilib".

Hazırda ölkədə koronavirusun hansı genotipinin yayıldığının araşdırıldığını deyən R.Bayramlının sözlərinə görə, bu məqsədlə xaricdə təhsil almış müasir təhsilə malik şəxslər tədqiqatlara cəlb olunub.

O bildirib ki, Azərbaycan əhalisinin sayına görə ən çox test icra edən ölkələrdəndir.

R.Bayramlı bildirib ki, koronavirusdan sağalan şəxslər yenidən bu xəstəliyə yoluxa bilər. Onun sözlərinə görə, həmin şəxslər yenidən bu virusa yoluxsa da, xəstəliyi yüngül keçirə bilərlər: "Bugünkü nəticələr göstərir ki, yenidən yoluxmalar qeydə alınır. Amma bu yoluxma sonradan hansı vəziyyətdə ağırlaşa bilər, o barədə konkret zəmanət yoxdur".

**Karantin rejiminin tədricən ləğvi üçün tədbirlər hazırlanır**

R.Bayramlı bildirib ki, Azərbaycanda karantin rejiminin tədricən ləğvi üçün tədbirlər hazırlanır. Onun sözlərinə görə, karantin rejiminin tam aradan qaldırılması halında yenidən kütləvi yoluxmalar baş verə bilər: "Karantin rejimindən tədricən çıxmaqla bağlı müraciət edəcəyik. Bununla bağlı xüsusi qaydalar hazırlanaraq ictimaiyyətə açıqlanacaq".

**Koronavirusdan vəfat edən şəxslər dövlət hesabına dəfn edilir**

Koronavirusdan vəfat edən şəxslər dövlət hesabına dəfn edilir. Bunu İbrahim Məmmədov deyib. Onun sözlərinə görə, bu prosesdə bütün xərcləri dövlət öz üzərinə götürür.

Karantin müddətində xəstəxana və digər tibb müəssisələrində hər hansısa xəstəlikdən vəfat edən şəxslərin ailələrinə çatdırılması prosesinə gəlincə isə, TƏBİB-in İdarə Heyətinin sədri R.Bayramlı bildirib ki, bu prosesdə cənazənin götürülməsi və dəfn edilməsi üçün ailə üzvlərinə şərait yaradılır: "Tibb müəssisələrində vəfat edənlərin ailəsinə yardım edilir. Onun dəfnində iştirak təmin edilir".

**6 həkim koronavirusa yoluxub**

Azərbaycanda 6 həkim koronavirus infeksiyasına yoluxub. Bunu R.Bayramlı deyib.

Onun sözlərinə görə, Cəlilabad Xəstəxanasında 10 həkimin koronavirusa yoluxması barədə yayılan xəbərlər həqiqətə uyğun deyil: "Həmin xəstəxanada bir həkim və bir nəfər də tibb işçisi virusa yoluxmuşdu".

TƏBİB rəsmisi əlavə edib ki, başqa bir xəstəxanada isə təsərrüfat işçisinin virusa yoluxması müəyyən edilib və o, karantinə götürülüb.

**Koronavirusa yoluxan kişi və qadınların sayı…**

Azərbaycanda koronavirusa yoluxanlardan 640 nəfəri kişi, 557 nəfəri isə qadındır. Bunu R.Bayramlı bildirib. Onun sözlərinə görə, virusa yoluxanlar yaş qruplarına görə 0-9 yaş arasında 66 nəfər, 10-19 yaş arası 60, 20-29 yaşarası 175, 30-39 yaşarası 214, 40-49 yaşarası 198, 50-59 yaşarası 248, 60-69 yaşarası 157, 70-79 yaşarası 56 nəfərdir. 80 və yuxarı yaş qrupunda isə 23 nəfərdə yoluxma qeydə alınıb".

Hazırkı dövrədək ölkəmizdə 1253 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 404 nəfəri müalicə olunaraq sağalıb, 13 nəfər vəfat edib, 836 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 24 nəfərin vəziyyəti ağır, 27 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 75.397 test aparılıb.

# Əsl insan, alim və həkim ömrü

**Dünya oftalmologiya elminə böyük töhfələr vermiş akademik Zərifə xanım Əliyevanın zəngin elmi irsi, tibbin müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələrini təşkil edir. Görkəmli alimin keçdiyi şərəfli ömür yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir.**

Bu gün akademikin əbədiyyətə qovuşmasından 35 il keçir.Ömür vəfa etsəydi, dünya elmi, ictimai fikir tarixi, insanlıq bu parlaq alimin yaradıcı istedadından, nəcib şəxsiyyətindən hələ nələri əxz edərdi. Onun şəfalı əlləri nə qədər insana dünya işığını yenidən bağışlayardı. Amma neyləməli ki, bu həyatda hər kəsin bəlli bir qisməti var... Yaddaşlarda yaşamaq isə əbədi ömür qazanmaqdır. Yalnız belə işıqlı simaların adları bəşər tarixinə qızıl hərflərlə yazılır. İmzası, dəst-xətti ilə seçilən şəxsiyyətlərdən olan Zərifə Əziz qızı Əliyevanın adı əbədiyyət ünvanında həmişəlik qərar tutub. O, həyatın sınaqlarından, elmin çətin yollarından keçərək şərəfli bir ömür yaşamağın nümunəsinə çevrilib.

**Həyat uğurları**

Akademik Zərifə Əliyevanın ömür yolunun ayrı-ayrı səhifələrinə nəzər saldıqca həyatının hər sətri bizə görkəmli ictimai-siyasi xadim Əziz Əliyevin adına, ocağına layiq övladın, fədakar ananın, ömür-gün yoldaşının, insana xas ən ali keyfiyyətləri şəxsiyyətində bir araya gətirmiş əsl Azərbaycan qadınının, xalqını, vətənini canı qədər sevən gözəl ziyalının, təbabət elminə böyük töhfələr vermiş, yüzlərlə insanın gözlərinə işıq bəxş etmiş dünya şöhrətli oftalmoloq-alimin həyat hekayəsindən danışır.

Zərifə xanım Əliyeva 1923-cü il aprelin 28-də Naxçıvanın Şərur rayonunun Şahtaxtı kəndində - görkəmli dövlət və elm xadimi Əziz Əliyevin ailəsində dünyaya göz açmışdı. Cəmiyyət üçün layiqli insan kimi yetişməsində, peşə seçiminin düzgün müəyyənləşməsində boya-başa çatdığı ziyalı mühitinin təsiri böyük idi. Bu da təbii bir qanunauyğunluqdur. Çünki hər bir insan xarakterinin öz məntiqi var, deyirlər. Ailənin təsiri, dəyərləri hər kəsin taleyində mühüm rol oynayır. Zərifə xanımın da daxilindəki bu təsirlər, dəyərlər çox möhkəm və güclü idi. Ailələrinin, atasının cəmiyyətdəki mövqeyi yüksək olduğu kimi, o da məktəb illərindən müstəqil şəxsiyyət kimi düşünür və öz gələcək həyatına ciddi yanaşırdı. Axı, ailə insanın sosial statusunu həmişəlik müəyyən etmir. Həyatın bəzən amansız sınaqlarında hər kəs öz iradəsinin gücündən, qüvvəsindən istifadə etməli olur. Zərifə xanım da gəncliyindən özünün ən yaxşı keyfiyyətlərinə əsaslanmağa çalışırdı. Digər tərəfdən, atasının nümunəsi, az qala əsgər həyatı yaşaması onun gözünün qarşısında idi. Onların zamanı belə idi: güzəştsiz, tələbkar, hədsiz məsuliyyət tələb edən bir zəmanə.

Zərifə xanım orta məktəb illərindən tibb sahəsinə maraq göstərərək insanların gözünə nur vermək kimi müqəddəs bir yol seçmişdi. Oftalmologiya ixtisasına bağlılığı həm də onun daxilindən, mənəvi dünyasından, insanlara həssas münasibətindən irəli gəlirdi. Sonralar peşəsində qazandığı uğurlar da məhz bu keyfiyyətləri ilə bağlı oldu. Xəstələrini doğmalarından ayırmadı, insanları zülmətdən qurtarmaq, onların gözlərini nura boyamaq üçün əlindən gələni əsirgəmədi. İstedad, zəhmət və ağılla qazanılan uğurlu illər getdikcə zənginləşir və ondan bütün cəmiyyətə pay düşürdü. Zərifə xanım Əliyeva da həyat uğurlarına bu keyfiyyətləri sayəsində nail olmuşdu.

**Fasiləsiz yüksəliş illəri**

Zərifə xanım orta məktəbi bitirəndə 1942-ci il idi. Cəbhədə sovet ordusu birbirinin ardınca uğursuzluqlara düçar olurdu. Atası da daim əsgər şinelində idi, evdə onun üzünə həsrət idilər. Dövlət onu hara yollayırdısa gedirdi, əlindən gələni əsirgəmirdi. Zərifə də zamana, atasına layiq olmalı idi. Onda ikinci dünya müharibəsi bir il idi ki, başlamışdı. Bakıdakı bir çox binalar hospitala çevrilmişdi. Bu hospitallar cəbhədə ağır yaralanmış döyüşçülərlə dolu idi. Onların müalicəsi üçün bəzən tibbi kadrlar çatışmırdı. Tibb sahəsindən müəyyən anlayışı olan insanlar vaxt tapdıqca hospitallarda ictimai əsaslarla çalışmağı özlərinə borc bilirdilər. Hələ orta məktəbin son sinfində ikən Zərifə xanım da dərslərdən sonra rəfiqələri ilə evlərinin yaxınlığındakı hospitallara gedər, həkimlərə, digər tibb işçilərinə bacardıqları dəstəyi göstərər, yaralıların uzaqlardakı doğmalarına məktub yazmalarına kömək edər, onlara mənəvi dayaq olmağa çalışardılar. Gənc qızın həkimlik sənətini seçməsində, görünür, onun bu sənətin başqalarının həyat və sağlamlığı üçün nə qədər böyük önəm daşıdığını bir daha dərk etdiyi o çətin günlərin də böyük rolu olmuşdu.

Nəhayət, ağır və mürəkkəb bir dövrdə orta məktəbi uğurla başa vurdu, yüksək bilik toplamağa can atdı. Nəticə də onun zəhmətinə görə oldu: 1942-ci ilin yayında imtahanları uğurla verib Azərbaycan Tibb İnstitutunun müalicə fakültəsinə daxil oldu.



Müharibə də ağır bir sınaq idi: acıları, amansız qayda və tələbləri ilə. Bunların hamısına dözmək lazım idi, stalinizmin total nəzarətinə də həmçinin. Belə şəraitdə büdrəmək, gileylənmək qadağan idi, bəlkə də nümunə olmaq lazım idi. Onları böyüdən anaları Leyla xanım bunu həmişə deyirdi. Müdrik, zəhmətkeş, əsl xalq adamı olan anaları hər şeyi nəzarətdə saxlayırdı.1941-1945-ci illər müharibəsinin ən çətin günlərində bu ailənin qapısı əzizlərinin, tanış və qohumların, tələbə yoldaşlarının üzünə həmişə açıq idi.

1947-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu əla qiymətlərlə bitirən Zərifə Əliyeva daha artıq praktik biliklərə yiyələnmək üçün Moskvaya, Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutuna getdi. Bu gedişin daha bir məqsədi var idi: Azərbaycanı bürümüş traxoma epidemiyası! Ölkəyə məhz bu yöndə ixtisaslı həkimlər çox lazım idi. Zərifə xanım isə müalicəfakültəsini bitirmişdi. Göz xəstəlikləri üzrə ixtisaslaşmaq üçün mütləq əlavə təhsil zəruri idi. Həm də göz viruslarının regional fərdiliyi də var idi və infeksiya ilə mübarizə həm də bu fərdiliyi fundamental şəkildə öyrənməyi tələb edirdi. Zərifə xanım məhz bunu qarşıya məqsəd qoydu.

1947-ci ilin Moskva dövrü üçün yeni bir aləm oldu.Müharibədən sonra insanlarda daha böyük həyat eşqi vardı. Hər yanda tikinti və bərpa işləri gedirdi. Ölkədə müasir biliklərin əhəmiyyəti düzgün təyin edilmişdi. İnsanlar metroda belə, əli kitablı idilər, fürsət düşən kimi hamı kitab oxuyurdu. Ən başlıcası, insanlar arasında səmimiyyət, sabaha inam və ümid var idi. Müharibədən qalib çıxmış ölkədə belə də olmalı idi.Moskvada Zərifə xanım o dövrün məşhur tibb alimləri ilə tanış oldu. Bir də göz cərrahiyyəsinin sürətli inkişafı onun nəzərindən yayınmadı. Müharibə tibbin cərrahiyyə sahəsinə böyük təkan vermişdi, ağlasığmaz əməliyyatlar həyata keçirilirdi. Professorlardan biri demişdi ki, cərrahiyyə - müharibələrdən doğmadır. Həqiqətən müharibədən sonra tibbin, xüsusilə cərrahiyyənin misilsiz inkişafı bunun əyani təsdiqi idi.

Zərifə xanım Moskvada iki il yaşadı, elmi işçi kimi püxtələşdi. Özünə elmi mühitdə çoxlu dostlar tapdı, onlara bağlandı, bəziləri ilə sonralar müştərək tədqiqatlar apardı, kitablar çap etdirdi. Belə dostların əksəriyyəti sonralar onun elmi işlərinin rəyçiləri və opponentləri oldular, onun barəsində məqalələr və səmimiyyət dolu xatirələr yazdılar. Məhz Moskvada Zərifə xanım həyatın və elmin çətin yoluna çıxdı. Bu, böyük həyat, fasiləsiz yüksəliş yolu idi.

**Azərbaycanda traxomanın ləğvi onun adı ilə bağlıdır**

1949-cu ildə Bakıya qayıdanda Zərifə Əliyeva artıq yüksək ixtisaslı göz həkimi idi. Onu Elmi-Tədqiqat Oftalmologiya İnstitutuna elmi işçi göndərdilər. Bu, ürəyindəki arzulara daha uyğun idi: göz xəstəlikləri üzrə elmi tədqiqatlar aparmaq. Azərbaycanda traxoma virusunun qarşısını almaq və sonra isə onun kökünü kəsmək həm praktik, həm də fundamental araşdırmaların kəsişdiyi yerdə həyata keçə bilərdi. Ona görə Zərifə xanım aspiranturaya hazırlaşmağa başladı. Zamanı gələndə sənədlərini verib imtahanlarda iştirak etdi. 1950-ci ildə əla qiymətlərlə aspiranturaya daxil oldu. Namizədlik mövzusu kimi traxoma xəstəliyinin və epidemiyalarının müalicəsi və profilaktikası məsələlərini seçdi.

O bilirdi ki, 1941-1945-ci illər müharibəsindən əvvəl Azərbaycanda tüğyan edən traxoma xəstəliyinin qarşısını almaq üçün təşkil edilmiş xüsusi səhiyyə işçiləri komissiyasına atası Əziz Əliyev rəhbərlik etmişdi. Doğrudur, o vaxtlar bu komissiya çox fədakar işlər aparmış və Azərbaycanda traxoma epidemiyasının yayılmasının qarşısı alınmışdı. Lakin İkinci Dünya müharibəsindən sonrakı illərdə xəstəlik Azərbaycanda yenidən baş qaldırır, ağır fəsadlar törədərək insanlarda görmə qabiliyyətindən məhrumluğa, əmək qabiliyyətinin itirilməsinə, gözdən əlillərin sayının kütləvi surətdə artmasına səbəb olur. Həkimlərin qarşısında sosial dillema kimi dayanan bu problem gənc alimi ciddi narahat edir. O, belə patologiyalardan əzab çəkənlərə ixtisaslaşmış həkim yardımı göstərmək məqsədilə bütün imkanlarını səfərbərliyə alır.O dövrdə, Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada 400 milyona qədər insan traxoma xəstəliyinə tutulmuş, nəticədə 80 milyon insan görmə qabiliyyətini itirmişdi. Çünki bu xəstəliyin müalicəsinə güclü təsir göstərəcək dərman preparatları hələ mövcud deyildi. İkinci Dünya müharibəsindən yenicə çıxmış, iqtisadi-siyasi durumu qənaətbəxş olmayan ölkənin ümumi vəziyyətinin nikbin qiymətləndirilməsinə əsas verən stimul da yox idi. Belə problemlərlə üzləşən gənc tədqiqatçı ruhdan düşməyərək axtarışlarını davam etdirir, traxoma xəstəliyinin qarşısını almaq üçün diaqnostika, müalicə və profilaktika üsullarının kompleks şəkildə tətbiqi istiqamətində mühüm tədbirlər planı həyata keçirməyə başlayır.

Zərifə Əliyeva traxoma ilə əlaqədar ölkədəki real vəziyyəti əyani olaraq müşahidə etmək üçün Azərbaycanın bütün rayonlarına gedərək göz xəstəliklərinin regional lokallığını müəyyənləşdirir, xəstəliyin epidemioloji xüsusiyyətlərini araşdırır, məsləhətlər verir, bir sıra göz xəstəliklərinin profilaktika və müalicəsi haqqında maarifləndirici söhbətlər aparır.

*Əhliman ƏMİRASLANOV*
*akademik, SSRİ Dövlət mükafatı laureatı*

*(Ardı növbəti sayımızda)*

# Koronavirusla uğurlu mübarizə öz yerində - struktur islahatlarının davam etdiriləcəyi barədə qətiyyətli anons verildi...

**Prezident İlham Əliyev hökumət təmsilçisi olan nazirlərlə keçirdiyi videokonfrans müşavirəsi zamanı, bütün çətinliklərə baxmayaraq, islahatların davam edəcəyini bildirib. Onun sözlərinə görə, bu özünü həm struktur, həm də kadr islahatlarında göstərəcək:**

"...Pandemiya bir daha göstərdi ki, uğurlu inkişaf üçün iqtisadiyyat dayanıqlı olmalıdır. Buna nail olmaq üçün mütləq bütün sahələrdə islahatlar aparılmalıdır - həm iqtisadi-sosial sahədə, eyni zamanda, siyasi sahədə. Mən hesab edirəm ki, siyasi islahatların aparılması bundan sonra da bizim imkanlarımızı daha da genişləndirəcək. Biz bu islahatların gözəl nəticələrini görürük. Azərbaycan bundan sonra da demokratik inkişaf istiqamətində önəmli addımlar atacaq. Bizim kifayət qədər güclü siyasi iradəmiz var. Biz görürük ki, siyasi və iqtisadi islahatlar paralel aparılarkən doğrudan da böyük uğurlara imza ata bilərik. Struktur islahatları aparılıb və hesab edirəm ki, struktur islahatlarının davam etdirilməsi məsələlərinə yenə də baxmalıyıq. Siyasi islahatlar göz qabağındadır, kadr islahatları aparılıb. Prezident Administrasiyasında, Nazirlər Kabinetində, parlamentdə böyük kadr dəyişiklikləri edilib. Bütün hakimiyyət qollarında aparılan islahatlar bir məqsədi güdür ki, idarəetmə mexanizmi daha da təkmilləşsin, təbii olaraq, gəncləşmə siyasəti aparılsın və peşəkar kadrlar önəmli vəzifələrə gətirilsin. Hesab edirəm ki, bizim sözümüzlə əməlimiz arasında, hər zaman olduğu kimi, bu dəfə də vəhdət var və nəyi bəyan etmişəmsə biz onu da təmin edirik. Hesab edirəm ki, Prezident Administrasiyasında, Nazirlər Kabinetində və Milli Məclisdə aparılan ciddi islahatlar nəticəsində ölkəmiz indi yeni inkişaf mərhələsinə inamla qədəm qoyur və idarəetmədə təkmilləşmə göz qabağındadır. Eyni zamanda, yerli icra orqanlarında aparılan kadr islahatları, xüsusilə, xoşagəlməz hallara qarşı ciddi mübarizə də göz qabağındadır. Bu bizim şüurlu seçimimizdir. Bütün xoşagəlməz hallara qarşı bundan sonra da ciddi mübarizə aparılacaq. Hesab edirəm ki, Prezident tərəfindən edilən xəbərdarlıq hər kəs üçün dərs olmalıdır. Əgər kimsə bundan ibrət götürməsə, günah onun özündə olacaq".



Qeyd edək ki, koronavirusla bağlı görülən tədbirlər həm də, çağırılmamış qonaq kimi, hökumətin test olunması baxımından "yaxşı" vasitə oldu. Məhz belə ekstremal şəraitdə hansı qurumların prosesə hazırlığının nə səviyyədə olduğu üzə çıxdı. Bura koronavirus dərslərini də əlavə etsək, Prezidentin anons etdiyi struktur islahatlar təxminən hansı çərçivədə gedə bilər?

YAP Siyasi Şurasının üzvü Vüqar Rəhimzadə "Bakı-Xəbər"ə bildirdi ki, struktur islahatları çox vacibdir:"İslahatlar davamlı və sistemli şəkildə həyata keçirilir. Burada məqsəd təkrar olunan təşkilatların birləşdirilməsi və eyni zamanda, icra orqanlarının fəaliyyətində çevikliyin təmin edilməsidir. Ümumiyyətlə, inkişaf etməkdə olan cəmiyyətlərdə struktur islahatları sistemli şəkildə həyata keçirilir. Bu proses Azərbaycanda da uğurla icra olunur. Sistemli islahatlar ölkəmizin beynəlxalq nüfuzunu artırır, iqtisadi inkişafda yeni uğurlu addımların atılmasına şərait yaradır. İslahatların dərinləşməsi və geniş miqyas alması Prezidentə olan ictimai rəğbət və dəstəyi daha da artırır. İndiyə qədər həyata keçirilən islahatlar ölkənin bütün sferalarını əhatə edib. Bununla paralel mühüm kadr dəyişikliyi də aparıldı. Hətta ən yüksək vəzifələri də əhatə etdi. Bütün dönəmlər üçün xarakterik olan islahatlar həm də Azərbaycan dövlətinin qüdrətinin göstəricisidir. Çünki belə çətin vəziyyətdə bir çox inkişaf etmiş ölkələr böhrandan necə çıxacaqlarını planlaşdırır, ancaq biz həm də inkişaf və islahat haqda fikirləşə bilirik. Sistemli şəkildə həyata keçirilən bu tədbirlər çevik idarəetməni formalaşdırır. Bu addımlar bizim daha da qüdrətlənməmizə səbəb olacaq, dünyaya daha sıx inteqrasiyamızı təmin edəcək. Ölkə başçısının bu təşəbbüsünə böyük ictimai dəstək var".

Ekspert İlqar Hüseynli isə "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, struktur islahatının mahiyyəti ondan ibarətdir ki, idarəetməyə yeni nəfəs gəlsin:"Ölkədə aparılan struktur islahatlarının heç də hamısı ideal nəticəni vermir. Bu səbəbdən də, islahatların aparılmasına zərurət duyulur. Ölkə Prezidenti müəyyən göstərişləri və tapşırıqları verir. Təəssüflər olsun ki, onların icrası ilə bağlı çatışmazlıqlar var. Bu da dövlətin bəzi qurumlarının işindəki qüsurlarla bağlıdır. Məsələn, yerli rayon icra hakimiyyətlərinin davranışlarında biz bunu görürük. Nümayişkarانə şəkildə icra başçılarını həbs etdilər. Onların rüşvət aldıqları bütün ölkəyə sübutedici formada nümayş edildi. Ancaq təəssüflər olsun ki, həmin vəziyyət çoxlarına örnək olmadı. Prezident sonrakı müşavirədə dedi ki, yenə də vətəndaşları incidən, rüşvət yığan icra başçıları ortaya çıxdı və onlar da həbs edildi. Əgər biz Prezidentin iradəsinə uyğun ciddi islahatlar aparmaq istəyiriksə, ilk növbədə rayon icra hakimiyyətlərindən başlamalıyıq.

**Biz icra orqanlarını dəyişsək, onların yerlərdəki polisə, məhkəməyə, prokurorluğa təsir gücləri azalar. Bu da şəffaflığın təmin olunmasına müsbət təsir edər. İslahatlar zənciri hətta kənd icra nümayəndələri və bələdiyyələri əhatə etməlidir. Aşağılardan başlayıb, yeni struktur formalaşdırmalıyıq. Çünki bu sahədə xoş olmayan vəziyyət hakimdir. Bir də çalışmalıyıq ki, islahatların aparıldığı qurumlarda nəzarət güclənsin. Onların fəaliyyəti keçmiş zamanla tutuşdurulub, doğru təhlil olunsun. Belə nəzarət güclənəcəyi halda struktur islahatların effekti daha yaxşı olar".**

*Məhəmmədəli QƏRİBLİ*

**"Ermənistan təbliğatına və ümumiyyətlə, Ermənistanın münaqişə ilə bağlı mövqeyinə növbəti böyük zərbə bu yaxınlarda vuruldu. Bu zərbəni, əslində, onlar özləri özlərinə vurdular. Əlbəttə ki, bizim məqsədyönlü fəaliyyətimiz, beynəlxalq təşkilatlarla yaranmış əlaqələr bu zərbəni daha da gücləndirdi.**

# Azərbaycana münasibətdə AŞPA tarixinin ən rüsvayçı faktı - qondarma "DQR"də qondarma "seçki"yə dünyada tək AŞPA susdu...

## *Fikrət Sadıqov: "Bu, qurumun müəyyən dairələrin əlində alət olduğunu göstərir"*



Söhbət qondarma "Dağlıq Qarabağ Respublikası"nda keçirilmiş qondarma "prezident"in qondarma "seçkiləri"ndən gedir. Bu "seçkilər" bir daha göstərdi ki, bu qanunsuz xunta rejimini heç kim tanımır. "Seçkilər"dən sonra bütün aparıcı beynəlxalq təşkilatlar bu "seçkiləri" tanımadı və açıq-aydın bəyanatlar səsləndi".

Bu sözləri Prezident İlham Əliyev 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində keçirilmiş müşavirədə söyləyib.

Dövlət başçısı Avropa Şurası Parlament Assambleyasının sözügedən "seçkilərə" münasibət bildirməməsini sərt tənqid etdi: "Bu beynəlxalq təşkilatlar arasında bir təşkilatın adı yoxdur. Hesab edirəm, hər kəs başa düşür ki, söhbət Avropa Şurasından, Avropa Şurası Parlament Assambleyasından gedir. Hansı ki, uzun illər, 20 il ərzində Azərbaycanı qaralamaq, Azərbaycana şər, böhtan atmaq, Azərbaycanı nüfuzdan salmaq üçün əlindən gələni əsirgəmir. Baxın, bütün təşkilatlar, o cümlədən, Avropa təşkilatları bəyan edirlər ki, biz bu "seçkiləri" tanımırıq. Bunun birmənalı mənası odur ki, Dağlıq Qarabağ Azərbaycandır. Avropa Şurası Parlament Assambleyası niyə susur? Niyə bunu demir? Sualın cavabı aydındır. Ona görə ki, orada cəmləşən anti-Azərbaycan qüvvələr, ermənipərəst qüvvələr Azərbaycana düşmən gözü ilə baxırlar. Azərbaycanla bağlı məruzəçilər var və bu məruzəçilər də susub, bir söz demirlər. Burada balaca bir hadisə baş verən kimi ölkəmiz haqqında ağızdolusu yalan, böhtan uydururlar. Nə üçün susublar? Bundan sonra onlar Azərbaycan üzrə məruzəçi olmaq mənəvi haqqını itiriblər".

### *"AŞPA-nın qondarma "seçkiləri" susqunluqla izləməsinin heç bir hüquqi əsası yoxdur"*

Göründüyü kimi, AŞPA-nın qondarma "seçkiləri" susqunluqla izləməsi bu təşkilatın rüsvayçılığının göstəricisidir. Bütün beynəlxalq qurumlar "DQR"dəki qondarma "seçkiləri" tanımadıqlarını bəyan etdikləri halda, AŞPA bunu niyə susqunluqla izləyir?

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, AŞPA-nın qondarma "seçkiləri" susqunluqla izləməsinin heç bir hüquqi əsası yoxdur: "AŞPA bir sıra dövlətləri təmsil edən deputatlardan ibarət bir strukturdur. Burada ermənipərəst, Azərbaycana qarşı qərəzli mövqe tutanlar az deyil. Onlar hesab edirlər ki, Azərbaycanın AŞPA ilə müəyyən problemləri var. Ancaq hansı ölkədə problem yoxdur? Problem varsa, bunlar həll olunur. Problemin olması ona əsas vermir ki, AŞPA Azərbaycanın ərazi bütövlüyünü tanımasın və ya bununla bağlı mövqe sərgiləməsin. Azərbaycan Avropa Şurasının tamhüquqlu üzvüdür.

Belə olan halda, AŞPA-nın borcudur ki, separatçı qurumdakı "seçkilərə" münasibət bildirsin. Özü-özlüyündə AŞPA-nın baş verənləri susqunluqla izləməsi qərəzli mövqedir. Ona görə də bu yanaşma qəbuledilməzdir. Bu cür biganə mövqe AŞPA-nın ciddi qurum olmasına kölgə salır. Digər tərəfdən, bu, qurumun müəyyən dairələrin əlində alət olduğunu göstərir. Yoxsa, özünə hörmət edən təşkilat bu cür mövqe tutmaz".

***Vidadi ORDAHALLI***

**Aprelin 14-də Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan, videokonfrans şəklində keçirilən müşavirədə ölkə başçısı aparılan və gələcəkdə davamı nəzərdə tutulan islahatlardan bəhs edib. Prezident çıxışında müxalifətlə daha sıx əməkdaşlığın nəzərdə tutulduğunun anonsunu verib.**

# Azərbaycanda siyasi konfiqurasiyanın yeni mərhələsi - müxalifət ölkə idarəçiliyinə daha sıx cəlb olunacaq

## *Bünyamin Qəmbərli: "Bu gün müxalifətin dövlət idarəçiliyində kənarda qalmasından istifadə edən müəyyən qüvvələr müxtəlif formalarda qütbləşmələr yaratmağa can atırlar"*



Ölkə başçısı ölkənin idarə olunmasında yeni konfiqurasiyaya artıq yol açıldığını bildirib: "İslahatların məntiqi davamı parlament seçkiləri idi və bu ilin fevral ayında keçirildi. Parlament seçkiləri bir daha xalqımızın iradəsini ifadə etdi, bir daha göstərdi ki, apardığımız siyasət Azərbaycan vətəndaşları tərəfindən bəyənilir, dəstəklənir və parlament seçkiləri demokratik inkişaf istiqamətində atılmış növbəti addımdır".

Prezident İlham Əliyev qeyd edib ki, seçkilərdən sonra parlamentin tərkibi böyük dərəcədə, rəhbər orqanları isə tam dəyişdirilib:"Tarixdə ilk dəfə olaraq, müxalifət nümayəndəsi Milli Məclisin sədrinin müavini vəzifəsinə seçildi. Hesab edirəm ki, bu, siyasi sistemin təkmilləşdirilməsi və siyasi münasibətlərin sağlam zəmində qurulması istiqamətində atılmış önəmli addımdır. Eyni zamanda, tarixdə ilk dəfə olaraq, parlament komitələrinə müxalifət nümayəndələri başçılıq edirlər, həm sədr, həm müavin vəzifələrində. Hesab edirəm ki, bu da çox önəmli addımdır və ilk növbədə, siyasi sistemin yeni konfiqurasiyasına yol açan bir addımdır, eyni zamanda, Milli Məclisdə gedən proseslərə müsbət təsir göstərəcək. İndiki şəraitdə biz açıq-aydın görürük ki, siyasi qüvvələrin mütləq əksəriyyəti dövlətçilik prinsiplərini hər şeydən üstün tutur və bu da əslində, bizim əsas məqsədimizdir. Çünki əsas məqsədimiz elə siyasi sistem yaratmaqdır ki, fərqli baxışlardan asılı olmayaraq, hər bir siyasi qüvvə üçün bir amal müqəddəs olsun, o da dövlətçilik, müstəqillik, azadlıq, rifah və inkişafdır. Belə olan halda həm siyasi müstəvidə işlər müsbət istiqamətdə gedəcək, eyni zamanda, ölkədə mövcud olan problemlər daha tezliklə həll olunacaq. Çünki müxalifət nümayəndələri bəzən iqtidar nümayəndələrinin görmədiyi qüsurları görürlər, onları dilə gətirirlər, onları diqqətə çatdırırlar və bu çox müsbət haldır. Ancaq eyni zamanda, bir daha demək istəyirəm ki, bütün siyasi qüvvələr üçün bir amal, bir məsələ toxunulmaz olmalıdır, bu da bizim müstəqilliyimiz, dövlətçiliyimiz və dövlət maraqlarıdır. Hesab edirəm ki, hakimiyyət tərəfindən atılan addımlar, siyasi dialoqun başlanması və müxalifət partiyaları tərəfindən buna müsbət reaksiya verilməsi müstəqillik dövründə tam yeni vəziyyətin yaradılmasına gətirib çıxarır. Müstəqillik dövründə bu sahədə heç vaxt belə müsbət mənzərə müşahidə edilmirdi. Əlbəttə, bəlkə mən hadisələri bir qədər qabaqlayıram. Çünki bu proses hələ təzə-təzə başlayır. Ancaq bəlkə ona görə qabaqlayıram ki, mən bu prosesin sürətlə getməsini arzulayıram. Şadam ki, bizim dialoq təklifinə müxalifət partiyalarının hamısı müsbət cavab verib və artıq siyasi dialoq başlayır. Əminəm ki, bu, ölkəmizə böyük fayda gətirəcəkdir". Prezidentin çıxışından belə qənaətə gəlmək olarmı ki, idarəçilik proseslərinə müxalifət daha sıx cəlb olunacaq və müxalif kadrlardan geniş istifadə ediləcək?

Parlament müxalifəti kimi təmsilçiliyi olan BAXCP-nin sədr müavini Bünyamin Qəmbərli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycanda siyasi münasibətlərin yeni formaya transformasiya olunması ölkəmizin inkişafına ciddi təsir edəcək:"Prezident dəfələrlə çıxışlarında vurğulayıb ki, neqativ hallara son qoyulmalıdır. Bütün bunlara baxmayaraq, müəyyən sahələrdəki neqativliklər aradan qalxmayıb. Çünki hökumətin üzərində müxalifətin ictimai nəzarəti zəif olub. Sonradan Prezident çıxışlarında dedi ki, bəzi həqiqətləri məqsədli şəkildə ondan gizlədiblər. İlham Əliyevi özü də dedi ki, məmurlar üzərində ictimai və vətəndaş nəzarəti güclü olmalıdır. Bunun da əsas təminatçısı siyasi institutlar, QHT-lər və media ola bilər. Yeni siyasi konfiqurasiyanın yaradılması bu istiqamətdə irəliləyiş yarada bilər. Bizim üçün əsas maraq dövlət maraqları olmalıdır. Bugünkü müxalifətin böyük bir qisminin müstəqilliyimizin qazanılmasında böyük rolu olub. Həmin adamlar, təbii ki, dövləti canlarından da artıq sevirlər. Belə qüvvələrin əsas amalı milli maraqlar olmalıdır. Hakimiyyət və müxalifət vahid orqanizmdi. Dovlətin idarəçiliyində mütləq müxalifətin rolu olmalıdır. Belə əlaqələrin itməsi ümumən dövlətin zəifliyinə gətirir. Bu baxımdan da, ölkə başçısının təklif etdiyi əməkdaşlıq modelini alqışlamalıyıq. Prezident doğru olaraq qeyd edir ki, müxalifətin haqlı tənqidləri ümumi inkişafa səbəb ola bilər. Müxalifət nümayəndələrinin qanunverici orqanda vəzifəyə gətirilməsində ölkə başçısı maraqlı bir detalı vurğulayır və deyir ki, bu prosesin bir qədər də sürətli getməsini istəyir.

Bu gün müxalifətin dövlət idarəçiliyində kənarda qalmasından istifadə edən müəyyən qüvvələr müxtəlif formalarda qütbləşmələr yaratmağa can atırlar. Siyasi qüvvələrin əksəriyyəti dövlətçilik prinsipini üstün tutur. Bunu ölkə başçısı da deyib. Belə proses xarici təzyiqlərin qarşısının alınmasına da müsbət mənada təsir edər. Müxalifətin belə təzyiqlərə cavabı hakimiyyəti qorumaq kimi qələmə verilə bilməz. Bunun adı dövlətçiliyin mühafizəsi olar. Mən öz partiyamızın adından deyə bilərəm ki, biz bələdiyyə seçkilərində yerlər qazanırıq. Təmsil olunduğumuz bələdiyyələrin daha yaxşı işləməsinə çalışmışıq. Partiyanın parlamentdəki fəaliyyəti də göz qabağındadır. Prezidentin bu inamı özünü doğrulda bilər".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Ermənistan pandemiya dövründə işğal altında saxladığı ərazilərdə "seçki" keçirməklə növbəti dəfə özünü zərbə altında qoydu - Azərbaycanın haqlı mövqeyi gündəmdə...

**İşğal siyasətinə haqq qazandırmaq üçün Ermənistanın hər dəfə atdığı addımlar sonda onu gülünc duruma salır, diplomatik tənqid hədəfinə çevirir. Azərbaycan ərazilərində yaradılan separatçı rejimdə təşkil edilən "seçkilər" bunun daha bir təsdiqi oldu. İrəvan bununla həm işğalçılıq siyasətindən əl çəkmədiyini bir daha göstərmiş oldu, həm də dünya miqyasında özünü növbəti dəfə biabır etdi.**

Xatırladaq ki, sözügedən məsələyə Prezident İlham Əliyev də 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans-müşavirədə geniş şəkildə toxundu. Bu xüsusda dövlət başçısı qeyd etdi: "Münaqişə ilə bağlı onu da bildirməliyəm ki, Ermənistan təbliğatına və ümumiyyətlə, Ermənistanın münaqişə ilə bağlı mövqeyinə növbəti böyük zərbə bu yaxınlarda vuruldu. Bu zərbəni, əslində onlar özləri özlərinə vurdular. Əlbəttə ki, bizim məqsədyönlü fəaliyyətimiz, beynəlxalq təşkilatlarla yaranmış əlaqələr bu zərbəni daha da gücləndirdi. Söhbət qondarma "Dağlıq Qarabağ respublikası"nda keçirilmiş qondarma "prezident"in qondarma "seçkiləri"ndən gedir. Bu "seçkilər" bir daha göstərdi ki, bu qanunsuz xunta rejimini heç kim tanımır. "Seçkilər"dən sonra bütün aparıcı beynəlxalq təşkilatlar bu seçkiləri tanımadı və açıq-aydın bəyanatlar səsləndi. ATƏT-in Minsk Qrupunun həmsədrləri - Amerika, Fransa, Rusiya açıqlama verdi. ATƏT Parlament Assambleyası açıqlama verdi. Avropa İttifaqı, hətta bizə qərəzli mövqedə dayanan Avropa Parlamenti də açıqlama verdi. NATO, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Türk Şurası - bütün bu təşkilatlar dünyanın, demək olar ki, mütləq əksəriyyətini cəmləşdirir. Qoşulmama Hərəkatında 120 ölkə, İslam Əməkdaşlıq Təşkilatında 50-dən çox ölkə, Avropa İttifaqında 30-a yaxın ölkə, ATƏT-də 50-yə yaxın ölkə. Bütün bu təşkilatlar bu "seçkiləri" tanımadı və bir daha göstərdilər ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bu bir daha göstərdi və mən bunu deməşəm, bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi".

Əslində, qeyd edilən reallıq Ermənistanın özünə də yaxşı məlumdur. Amma buna rəğmən, zəbt edilmiş Azərbaycan ərazilərində İrəvan "seçki şousunun" ikinci turunu da təşkil etdi. Artıq məlumdur ki, Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərində yaradılan separatçı rejimə Araik Arutyunyan rəhbərlik edəcək. "Seçkilərin ikinci turunda" bu şəxsin "qalib" gəldiyi bildirilir. Daha əvvəl Qarabağda yaradılan qondarma qurumun "baş naziri" olmuş Araik Arutyunyan baş nazir Nikol Paşinyana yaxın adamlardan sayılır. Bununla separatçıların yeni rəhbəri kimi onun Paşinyandan gələn göstərişləri daha çox icra edəcəyi proqnozlaşdırılır. Amma "Qarabağ klanı"nın da bununla asanlıqla barışacağı inandırıcı sayılmır. Hazırda bu fonda Paşinyana qarşı əsas ittiham belə bir "seçki" təşkil etməklə zəbt edilmiş ərazilərdə koronavirus pandemiyasının yayılmasını daha da sürətləndirməsi ilə bağlıdır. Xatırladaq ki, bu məsələyə görə ABŞ-ın "News Blaze" nəşri də İrəvanı sərt şəkildə ittiham edib. "Ermənistan koronavirusu düşüncəsiz şəkildə Dağlıq Qarabağa ötürür" sərlövhəli məqalədə İrəvanın Azərbaycan ərazilərində işğalçılıq siyasətinin davam etməsindən və COVID-19 koronavirusunun Dağlıq Qarabağda yayılmasından danışılır. Bildirilir ki, beynəlxalq birliyin çağırışlarına məhəl qoymayan Ermənistan artıq 30 ildən çoxdur ki, Ermənistanın işğalı altında olan Dağlıq Qarabağ regionunda qeyri-legitim "seçkilər" keçirib. Bundan əvvəl rəsmi İrəvanın virusa yoluxan ermənilərin Dağlıq Qarabağa girişini məhdudlaşdırmağa söz verməsinə baxmayaraq, Ermənistandan 1000 nəfərdən çox adamın işğal olunmuş ərazilərə "seçkiləri müşahidə etmək üçün" getməsinə icazə verilib. Bildirilir ki, seçki dairələrində sosial məsafə saxlamaq qaydaları düşüncəsiz və yolverilməz şəkildə pozulub. Vurğulanır ki, Ermənistan tərəfindən Dağlıq Qarabağda təyin edilmiş məsuliyyətsiz erməni hakimiyyət orqanları və oyuncaq rejimin, koronavirusun daha da yayılması təhlükəsinə baxmayaraq, aprelin 14-nə təyin olunan təkrar "seçkiləri" keçirməsi vəziyyəti daha da pisləşdirir:"Ermənistanda və Azərbaycanın işğal edilmiş ərazilərində COVID-19 pandemiyası səbəbindən aprelin 14-də "prezident seçkiləri"nin ikinci turunun keçirilməsi ilə bağlı qarşıdurma güclənir. Ümid yalnız ona qalırdı ki, İrəvandakı vəzifəli şəxslər cəmiyyətin sağlamlığının və təhlükəsizliyinin gündəlikdə duran hər hansı siyasi məsələnin icrasından daha vacib olmasını nəhayət başa düşəcəklər". Amma reallıq tamam bunun əksini göstərdi. Elə Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması da yaydığı son bəyanatda məsələyə bu prizmadan yanaşır: "Həftələr öncə Azərbaycanın Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcmasının işğal olunmuş ərazilərimizdə koronavirus xəstəliyinin yayılması barədə məlumat verməsinə və tərəfimizdən edilən xəbərdarlıqlara rəğmən, 31 mart 2020-ci il tarixində infeksiya halları gizlədilərək Ermənistanın əlaltısı olan rejim tərəfindən qanunsuz "seçki" şousu keçirildi. Bunun ardınca infeksiyanın yayılmasını Ermənistan etiraf etsə belə, 14 aprel 2020-ci il tarixində yenidən bütün insanların həyatı təhlükəyə atılaraq, "seçki" şousunun ikinci turu da təşkil olundu. Bütün bunlar onu göstərir ki, Dağlıq Qarabağda yaşayan sadə ermənilər Ermənistanın çirkin siyasi oyunları üçün alətdir və oradakı insanların həyatı və sağlamlığı Ermənistanı maraqlandırmır. Ermənistan hakimiyyəti və qondarma rejimin nümayəndələri Qarabağda yaşayan sadə erməni icması üzvlərinin həyatını dəyərsiz sayaraq, onların Azərbaycan vətəndaşları kimi müalicə imkanlarından yararlanmasının qarşısını almaqda davam edir". Yeri gəlmişkən qeyd edək ki, həm Ermənistanda, həm də zəbt edilmiş Azərbaycan ərazilərində koronavirusa yoluxan ermənilərin sayı artır. Rəsmi məlumatlara əsasən, Ermənistanda koronavirusa yoluxanların sayı artıq 1.111-ə çatıb. Məlumata görə, son sutkada ölkədə virusa 44 yoluxma halı qeydə alınıb. Koronavirusdan daha 1 nəfər ölüb. Beləliklə, pandemiya qurbanlarının sayı 17-yə yüksəlib. Qarabağda da koronavirus sürətlə yayılmaqda davam edir. Ermənistanın "168 jam" qəzeti bu xüsusda yazır:"Dağlıq Qarabağda fövqəladə vəziyyət elan edilib, məqsəd də koronavirusun yayılmasına qarşı durmaqdır. Lakin 14 apreldə keçirilmiş "prezident seçkilərinin" ikinci turu koronavirus təhdidinin burada ciddiyə alınmadığını göstərdi. İddia edilirdi ki, "seçki məntəqələrində" sanitar normalara riayət olunmasını təmin edəcəklər. Amma reallıq bunun əksini göstərdi. Dağlıq Qarabağda koronavirusa ilk yoluxanlar hələ bir neçə gün əvvəl aşkar edilmişdi. İndi onların sayı artır və burada "seçkilərin" də öz rolunu oynayacağı şübhəsizdir. Sosial şəbəkələrdə gedən müzakirələrə görə, Qarabağda yoluxanların sayı 10-u keçir. Reallıqda isə bu göstəricinin daha çox olmasına dair fikirlər səslənir. "Seçkilər" isə yenə erməni cəmiyyətində birmənalı dəyərləndirilməyib. Hətta Ermənistandan gələn müşahidəçilər də "seçkilərin" ədalətli keçməsini şübhə altına alan pozuntular haqda danışıblar". Burada bir məsələni də qeyd edək ki, elə beynəlxalq ictimaiyyət də yenidən Qarabağda keçirilən qondarma "prezident seçkiləri"nin ikinci turunu tənqid edib. Məsələn, Çinin Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Cao Licien Qarabağda aprelin 14-də keçirilən qondarma "prezident seçkiləri" ilə əlaqədar Çin tərəfinin mövqeyi haqqında sualını şərh edərək söyləyib: "Dağlıq Qarabağ məsələsi barədə Çin tərəfinin mövqeyi qəti və dəyişməzdir. Çin ümid edir ki, əlaqədar tərəflər regionda sülhü və sabitliyi qorumaq üçün mübahisəli məsələləri siyasi dialoq yolu ilə nizamlayacaqlar. Çin tərəfi regionun sabit inkişafı üçün səy göstərməyə hazırdır". Qeyd edək ki, Çin, əvvəlkitək, bu münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin tərəfdarıdır. Böyük Britaniyanın Azərbaycandakı səfirliyi də ikinci turu aprel ayının 14-də baş tutan Dağlıq Qarabağdakı qondarma "prezident seçkiləri" ilə bağlı bəyanat yayıb. Səfirliyin bəyanatında deyilir: "Böyük Britaniya ikinci turu aprel ayının 14-də baş tutan Dağlıq Qarabağdakı "prezident seçkilərini" tanımır. Böyük Britaniya bir daha ATƏT-in Minsk Qrupu və onun həmsədrlərinin sülh prosesindəki rolunu dəstəklədiyini vurğulayır. Biz beynəlxalq hüququn bütün dünyada tanınan prinsip və normalarının əhəmiyyətini vurğulamaqla bərabər, Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini dəstəkləyirik. Biz Azərbaycan və Ermənistanı münaqişənin sülh yolu ilə həll olunması və etimadın yaradılması üçün səylərini sürətləndirməyə çağırırıq".

Gürcüstan da qondarma "Dağlıq Qarabağ Respublikası"nı tanımadığını növbəti dəfə açıqlayıb. Gürcüstan Xarici İşlər Nazirliyindən bu xüsusda bildirilib ki, Tiflis Azərbaycanın bu bölgəsində keçirilən qondarma "prezident seçkiləri"nin ikinci mərhələsini də tanımır:"Gürcüstan Azərbaycanın suverenliyi və beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyünü dəstəkləyir, həmçinin münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq sülh yolu ilə həllini dəstəkləyir". Eyni mövqedən çıxış edən ölkələrin çoxluğu bir daha Ermənistanın işğal siyasətinin beynəlxalq miqyasda qəbul edilmədiyini göstərir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# 2013-cü il Prezident seçkiləri ərəfəsində radikal müxalifətin taktikası barədə yeni mülahizələr...

**Prezident İlham Əliyev hökumət üzvləri ilə keçirdiyi videokonfrans zamanı maraqlı detallara toxunan çıxış edib. Ölkə başçısı həssas məqamlarda radikal müxalifətin necə davranmasına bir tarixi ekskurs da edib. Prezident bildirib ki, bu dialoqdan imtina edənləri siyasi qüvvə adlandırmaq düzgün olmaz:**



"...Çünki bu düşərgədə cəmləşən insanlar uzun illərdir iqtidara qarşı yox, dövlətimizə, xalqımıza qarşı çirkin mübarizə aparırlar. Onların əsas məqsədi vəziyyəti gərginləşdirməkdir. Ölkəmiz üçün, xalqımız üçün nə qədər pisdirsə, onlar üçün o qədər yaxşıdır. Onların fəaliyyətinin tarixi də bunu göstərir. Biz bu tarixi yaddan çıxarmamışıq. Həmin bu qüvvələr Azərbaycanı 1990-cı illərin əvvəllərində ağır vəziyyətə salıblar, xəyanət ediblər, torpaqlarımızın işğalını şərtləndiriblər. Ondan sonra qorxaqcasına qaçıb gizləndilər. Həmin bu adamlar Azərbaycana böyük zərbə vurmuşlar, vətəndaş müharibəsinə start vermişlər. Torpaqlarımız işğala düşən zaman burada qardaş qanı axıdıldı. Bu qruplaşma ölkəmizdə xaos, anarxiya yaratdı, korrupsiya dövlət siyasətinə çevrildi və səriştəsizlik, tərbiyəsizlik, mədəniyyətsizlik artıq AXC-Müsavat hakimiyyətinin rəmzinə çevrildi. O hakimiyyəti təmsil edən adamların yarıtmaz və xəyanətkar fəaliyyəti nəticəsində ölkə faktiki olaraq dağılma ərəfəsində idi. Ona görə bu qruplaşmanı indiki şəraitdə siyasi qüvvə adlandırmaq olmaz".

İlham Əliyevin sözlərinə görə, AXC-Müsavat qruplaşması həmişə nəyisə gözləyirlər və həmişə xarici amilə ümid edirlər: "Yadınıza salın, 2005-ci ildə postsovet məkanında inqilablar baş verdiyi zaman onlar da bundan ruhlanıb "narıncı inqilab" etmək fikrinə düşmüşdülər. Hətta özləri üçün ayrı bir rəng də seçməkdə çətinlik çəkdilər, Ukraynadan o vaxt narıncı rəngi götürüb burada tətbiq etmək istədilər. Narıncı rəngdə maykalar, bantlar sifariş edib ölkəmizə gətirdilər. Ancaq bir şeyi nəzərə almadılar ki, o vaxt, 2005-ci ildə parlament seçkiləri noyabr ayında keçirilmişdi. Noyabrda artıq soyuqlar başlayır. O gülməli mənzərə yadımdadır ki, bunlar pencəyin, paltonun üstündən narıncı maykaları geyib küçələrə çıxmışdılar. Bəziləri isə boyunlarına salmış, bəziləri başlarına bağlamışdılar. Bu bir komediya mənzərəsi yaradırdı. Bax, budur bunların qabiliyyəti. O da alınmadı. Ondan sonra "ərəb baharı" başlayanda yenə də ruhlandılar ki, bunların əlinə bir fürsət düşəcək. 2011-2012-ci illərdə Azərbaycanda "ərəb baharı"nın təkrarlanmasını istəmişdilər. O da alınmadı. 2013-cü ildə prezident seçkiləri ərəfəsində hansı eybəcər addımlar atmışdılar, onu hər kəs xatırlayır".

Göründüyü kimi, Prezident radikal dairələrin keçmişdə, xüsusilə ölkəmiz üçün həssas sayılan dönəmlərdə hansı addımları atdıqları ilə bağlı qısa da olsa fikirlərini bildirib. Ölkə başçısı həmin radikalların 2013-cü ildə prezident seçkiləri ərəfəsində eybəcər addımlar atdıqlarını desə də, bundan ətraflı bəhs etməyib. Maraqlıdır, 2013-cü il seçkiləri ərəfəsində radikal dairələr hansı taktika üzrə hərəkət ediblər? Siyasi təhlilçilər həmin zamanı yaxşı xatırlayır. Həmin ildə Azərbaycanda növbəti Prezident seçkilərinin keçirilməsi nəzərdə tutulurdu. Hakim komanda əvvəlki qaydada öz namizədini tərəddüd etmədən elan etmişdi. Radikal müxalif dairələrdə isə bir vurnuxma hiss edilirdi. Düşərgənin bəzi üzvləri əvvəlcədən güclərini götür-qoy etdikləri üçün İlham Əliyevə alternativ olmaqdan yayınırdılar. Əvvəlcədən acı məğlubiyyətlərini proqnozlaşdıran həmin dairələr seçki mühitini gərginləşdirmək üçün Rusiyadakı bəzi dairələrin hazırladığı plana uyğun hərəkət etməyə başladılar. Faktiki olaraq milli-demokratik düşərgənin təmsilçiləri kimi özlərini təqdim edən təsisatlar Rusiyada hazırlanan bir ssenari üzrə hərəkət etməyə ikiəlli razılıq verdilər. Başladılar neytral və vahid namizəd axtarışına. Həmin vaxt Moskvada yaradılan "Milyarderlər İttifaqı" adlı bir təşkilat prosesləri nəzarət altında saxlayırdı. Beləliklə, bütün bunların nəticəsi kimi bir qədər sonra müxalifət düşərgəsində yeni bir qeyri-ənənəvi qurum meydana gəldi. Qısa müddətdə yaranan bu qeyri-ənənəvi ictimai təşkilat ənənəvi radikal partiyaları idarə etməyə və onları yönləndirməyə başladı. Bu qeyri-ənənəvi ictimai təşkilatın adı "Milli şura" idi. Beləliklə də, radikal müxalifət düşərgəsi üçün öz namizədini müəyyənləşdirmək mürəkkəb, barışmaz və üzücü bir məsələyə çevrildi. Nəhayət, Azərbaycanda güya "Koştunica variantı" deyilən bir planı tətbiq etməyə çalışdılar.

Siyasətlə əlaqəsi olmayan ssenarist Rüstəm İbrahimbəyovu vahid namizədləri elan etdilər. Ən dəhşətlisi isə bu oldu ki, "Milli Şura" bilmirdi irəli sürdüyü namizəd başqa ölkənin vətəndaşıdır və onun Azərbaycandakı seçkilərdə iştirak etmək hüququ yoxdur. Çıxılmaz vəziyyətdə, daha doğrusu başsız qalan radikallar məcbur qalıb, siyasi təqaüdçü sayılan Cəmil Həsənlini namizəd kimi irəli sürdülər. Faktiki olaraq dublyor rolunu oynayan Cəmil Həsənli Moskvadan verilən xeyir-dua ilə radikalların vahid namizədi olaraq seçkilərdə iştirak etdi və güclü lider İlham Əliyevin qarşısında məğlub oldu. Həmin hadisə bir daha göstərdi ki, Azərbaycanın radikal dairələri hakimiyyətə gəlmək üçün, hətta şeytanla belə əməkdaşlığa getməyə hazırdırlar...

***Məhəmmədəli QƏRİBLİ***

# Koronavirusun daha geniş yayılması üzərində radikal müxalifətin nə kimi "maraq planları" var...

**Məlum olduğu kimi, Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirə keçirilib. Prezident həmin videokonfransda geniş məzmunlu çıxış edib.**

## *Samir Adıgözəlli: "Bütün planlarını da buna qururlar ki, vəziyyət daha da pisləşsin, xalq etiraza qalxsın, bunlar da proseslərin önünə keçsinlər"*




Ölkənin real vəziyyəti ilə bağlı hansı proseslərin getdiyini detallı izah edən Prezident ölkəmizin koronavirus pandemiyası ilə bağlı düşdüyü bu çətin vəziyyətə sevinən, ondan yararlanmaq istəyən qüvvələrin də olduğunu bildirdi. Bəllidir ki, ölkə başçısı bu xususda əsasən radikal müxalifəti nəzərdə tutub. Sitat:"...İndi isə koronavirus bunlar üçün, sanki göydəndüşmə bir hədiyyədir. Bu gün koronavirusa sevinən ancaq bu antimilli qruplaşmadır. Mən təbii ki, baş verən hadisələrdən xəbərdaram və bilirəm ki, bunların bu çirkin niyyətləri dəhşətli bir mənzərə yaradır. Ölənlərin sayının artmasını arzulayırlar, xəstələrin sayının artmasını istəyirlər, sevinirlər ki, insanlar vəfat edir. Yəni bu, iqtidara qarşı deyil, dövlətə qarşı düşmənçilikdir. Mən hər şeyi öz adı ilə çağırıram. Əgər kimsə xalqımıza, dövlətimizə düşmənçilik edirsə, onun bir adı var - düşmən. Hər kəs bunları bele də çağırmalıdır. Bunların indiki arzuları da gözlərində qalacaq. Sözüm onda deyil, sözüm ondadır ki, siyasi işlahatlar bu gün tam yeni bir konfiqurasiya yaradır. Əminəm ki, marginal qruplaşmaya yeni konfiqurasiyada yer yoxdur və olmamalıdır. Azərbaycan xalqı onları 27 il bundan əvvəl tarixin zibilxanasına atıbdır".

Göründüyü kimi, ölkə başçısı radikal müxalifətin koronavirus dönəmi ilə bağlı bəyənilməyən addımlarının və gələcək üçün planlarının olduğunu qeyd edib. Radikal müxalifət belə gərgin situasiyadan öz xeyri üçün necə istifadə edə bilər, bu yöndə onların hansısa planı ola bilərmi?

İctimai Siyasi Proseslər Beynəlxalq Araşdırmalar Mərkəzinin (İSBAM) sədri Samir Adıgözəlli "Bakı-Xəbər"ə bildirdi ki, cənab Prezident çox doğru qənaətə gəlib:"Bunun kifayət qədər məntiqi əsasları var. Onların fəaliyyətini biz izləyirik. Xüsusilə də koronavirus dönəmində daha fəallıqları nəzərə çarpır. Maraqlıdır ki, bu fəallıq dünyanı bürüyən pandemiyanın ölkəmizə necə az ziyan vurması ilə bağlı fəaliyyət istiqamətinə yönəlməyib. Onlar bunu bir fürsət olaraq dəyərləndirirlər. İstəyirlər ki, vəziyyətin yaratdığı narazılıqlar artsın və bunların meydana çıxmasına münbit şərait yaradılsın. Fikir verirsinizə, onların sosial şəbəkədəki bütün fəaliyyətləri vəziyyətin gərginləşməsinə yönəlib. Əsasən də pandemiya ilə bağlı dövlətin üzərinə düşən öhdəlikləri bir az da şişirdib, onu vətəndaşlara qızışdırıcı formada təqdim edirlər. Prezident bildirir ki, onun üçün əsas olan insanların sağlamlığıdır. Gəlin görək, radikalllar üçün də bu meyar belədirmi? Təbii ki, yox. Onlar bu ağır vəziyyətdən də siyasi maraqların naminə istifadə etməyə çalışırlar. Pandemiya mühəribənin bir formasıdır. Belə vəziyyətdə siyasi intriqalar kənara qoyulmalıdır. Hamı ümummilli maraq üçün çalışmalıdır. Dövlət sosial paketlər müəyyən edib. Ancaq bütün dünyada biz görürük ki, belə vəziyyətdə əhali də bir-birinə kömək edir. Müxalifətin əlində böyük auditoriyası olan sosial media resursları var.

Heç görübsünüz ki, onlar imkansız adamlara yardımlaşmaya çağıran bir paylaşım etsinlər? Etmirlər, əksinə, edənləri lağa qoyurlar, bütün problemləri dövlətin etməli olduğuna dair qızışdırıcı təbliğat aparırlar. Radikal dairələr həmrəylik göstərməkdə maraqlı deyil. Bu cür siyasi mübarizəni təqdir etmirəm. Uzun illərin siyasi meyitinə çevrilmiş bu radikal dairələr belə fors-major vəziyyətdə nəsə edə biləcəklərini düşünürlər. Bütün planlarını da buna qururlar ki, vəziyyət daha da pisləşsin, xalq etiraza qalxsın, bunlar da proseslərin önünə keçsinlər. Ancaq bunu görə bilməyəcəklər".

***Məhəmmədəli QƏRİBLİ***

# Dünyanın koronavirus böhranından Azərbaycanın götürəcəyi dərs və ibrətlər - Prezident nəyi nəzərdə tutdu...

**Azərbaycan dövlətinin pandemiya dövründə həyata keçirdiyi tədbirlər, vətəndaşların sağlamlığının müdafiəsi istiqamətində gördüyü işlər nəticəsində koronavirus ölkəmizdə geniş şəkildə yayılmadı.**

***Elçin Mirzəbəyli:*** *"Hadisələrin öncədən nəzərə alınmaması, ayrı-ayrı dövlətlərin fors-major hallara hazır olmaması, nəticə etibarilə, daha acınacaqlı bir vəziyyətin ortaya çıxmasına zəmin yaratdı"*

Koronavirusun ölkəmizin sərhədlərinə yaxınlaşmadığı, lakin təhlükənin hiss edildiyi dövrdən başlayaraq lazımi təhlükəsizlik tədbirlərini həyata keçirməsi nəticəsində Azərbaycan böyük nəticələr əldə etdi. Halbuki, dünyanın inkişaf etmiş ölkələri pandemiyanı qeyri-ciddiyə aldıqları üçün ona qarşı heç bir təhlükəsizlik tədbiri görmədilər, nəticə də göz önündədir.

Prezident ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfransda pandemiyanın dünya ölkələrinə vurduğu zərərdən danışıb və bildirib ki, dünya ölkələrinin pandemiya dövründə keçdiyi ağır proses bizim üçün də dərs olmalıdır, bundan ibrət götürməliyik: "...Koronavirus böyük bəladır, 100 mindən çox insanın həyatına son qoyub. Demək olar ki, dünyanın bütün ölkələrində koronavirusla bağlı problemlər yaşanır. Azərbaycan da dünyanın bir parçasıdır. Ancaq deyə bilərəm ki, qabaqlayıcı tədbirlər və düşünülmüş siyasət nəticəsində biz vəziyyəti nəzarət altında saxlayırıq. Hesab edirəm ki, bu günə qədər atılmış bütün addımlar düzgün istiqamətdə atılmış addımlardır. Məhz bu addımların atılması nəticəsində Azərbaycanda vəziyyət nəzarət altındadır. Əgər bu addımlar vaxtında atılmasaydı və biz düşünülmüş strategiya çərçivəsində məhdudlaşdırıcı rejimi mərhələli yollarla sərtləşdirməsəydik, bu gün xəstələrin sayı min yox, bəlkə də 10 min, bəlkə də 20 min ola bilərdi. Ən inkişaf etmiş ölkələrin təcrübəsi onu göstərir ki, heç bir ölkə özünü tam sığortalı hesab edə bilməz. Heç bir ölkənin səhiyyə sistemi bu xəstələrin artan dinamikasının qarşısında duruş gətirə bilməz. Ona görə bu, bizim üçün də dərs olmalıdır və mən bunu artıq bildirmişəm, bir daha demək istəyirəm ki, ibrət götürməliyik. Bizim bütün addımlarımız ölçülüb-biçilmiş addımlardır və təsadüfi deyil ki, bir neçə ölkə bizim təcrübəmizdən yararlanıb oxşar addımlar atır. Biz bunu görürük. Ona görə bizim bundan sonrakı addımlarımız elə atılmalıdır ki, insanların sağlamlığını, onların həyatını qoruya bilək...". Dövlət başçısı "bu bizə dərs olmalıdır, bundan ibrət götürməliyik" deyəndə nələri nəzərdə tuturdu?

"Xalq Cəbhəsi" qəzetinin baş redaktoru, tanınmış politoloq Elçin Mirzəbəyli bizimlə söhbətində bildirdi ki, pandemiyanın yayılması dünya ölkələrinin bir çoxunun buna hazır olmadığını göstərdi. "Məlum olduğu kimi, koronavirus pandemiyası ilə bağlı mübarizə prosesi dünyanın bir çox ölkəsində idarəçilik sistemində olan çatışmazlıqları üzə çıxardı. Həm idarəçilik, həm iqtisadiyyatla bağlı problemlər, həm səhiyyə sistemində olan neqativ hallar ortaya çıxdı. Həmin dövlətlər, bütövlükdə, həm toplumun idarə edilməsi, həm dövlət idarəçilik mexanizmlərinin işləkliyi kontekstində, sosial faktor məsələsində və s. özlərinin kifayət qədər zəif olduqlarını nümayiş etdirdilər. Hadisələrin öncədən nəzərə alınmaması, ayrı-ayrı dövlətlərin fors-major hallara hazır olmaması, nəticə etibarilə, daha acınacaqlı bir vəziyyətin ortaya çıxmasına zəmin yaratdı. Azərbaycan ilk gündən önləyici tədbirlər həyata keçirdi və şübhəsiz, bu çevik qərarların qəbul edilməsində, innovativ texnologiyaların tətbiqində Azərbaycanda son dövrlərdə həyata keçirilən iqtisadi-siyasi, hüquqi islahatların müstəsna rolu var. Təbii ki, bu islahatlar həyata keçirilməsəydi, biz bu gün bütün müstəvilərdə tutumlu bir davranışın və çevik bir idarəçilik sisteminin şahidi olmazdıq. Bu aspektdən də, sözsüz, bütün bu proseslərin özündən dərs götürməyin lazım olduğu və çatışmazlıqların aradan qaldırılması üçün, şübhəsiz ki, müvafiq addımların atılması nəzərdə tutulur. Cənab Prezident öz nitqində qarşıdakı vəzifələr haqqında da geniş şəkildə danışdı. Qənaətimə görə, ayrı-ayrı istiqamətlər üzrə islahatların aparılması prosesi həm də çox güman ki, dövlət səviyyəsində nəzərə alınan və təhlil edilən problemlərin, çatışmazlıqların aradan qaldırılmasına yönəlib".




Digər tərəfdən, bunun ictimaiyyətə hesablanmış mesaj olduğunu deyən E.Mirzəbəylinin sözlərinə görə, həmrəylik, birlik çox önəmli faktordur ki, Azərbaycan xalqı bunu nümayiş etdirdi. E.Mirzəbəylinin bildirdiyinə görə, amma, bütövlükdə, fərqi yoxdur, istər koronavirusla mübarizədə, yaxud hər hansı bir fors-major halında, digər proseslərdə daha məsuliyyətli, daha intizamlı davranmalıyıq. "Qənaətimə görə, nəticə çıxarmaq təkcə dövlət strukturları üçün deyil, eyni zamanda, bütün vətəndaşlar üçün əhəmiyyət kəsb edir" - deyə E.Mirzəbəyli qeyd etdi.

***İradə SARIYEVA***

# Eldar Sultanov: "Xüsusi karantin rejiminin tələblərinin pozulması faktı ilə bağlı cinayət işi başlanıb"



**Aprelin 14-də saat 12 radələrində Tərtər rayon sakini Elşad Məmmədov idarə etdiyi "Mercedes" markalı, 10-OO-018 dövlət nömrə nişanlı avtomobillə Hacıqabul rayonu ərazisində xüsusi karantin rejimi ilə əlaqədar quraşdırılan stasionar polis postunda xidmətdə olan polis nəfərinin avtomobili saxlamasına dair qanuni tələbinə məhəl qoymayaraq yüksək sürətlə hərəkətini davam etdirib onu qəsdən vurub xəsarət yetirib.**

Baş Prokurorluğun Mətbuat xidmətinin rəhbəri Eldar Sultanovun "Trend"-ə verdiyi məlumata görə, faktla bağlı Hacıqabul rayon prokurorluğunda Cinayət Məcəlləsinin 139-1.1 (epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması) və 315.2-ci (hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə) maddələri ilə cinayət işi başlanıb.

**Araşdırmalarla həmçinin, avtomobildə olan sərnişinlər - Natiq Hüseynzadə və Anar Fətəliyev tərəfindən də xüsusi karantin rejiminin tələblərinin kobud pozuntusu halları müəyyən edilib.**

Qeyd olunan cinayət əməllərini törətməkdə şübhəli bilinən Elşad Məmmədov, Natiq Hüseynzadə və Anar Fətəliyev tutularaq istintaqa cəlb olunublar.

Hazırda iş üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# 37 min nəzərdə tutulmuşdu, 50 minə çıxdı - Prezident məmurlara ictimai iş yerlərini artırmağın yolunu izah etdi

**Məlum olduğu kimi, ölkəmizdə koronavirus pandemiyası ilə əlaqədar iş yerlərinin qorunması tədbirləri ilə yanaşı, əhalinin məşğulluq imkanlarının artırılması prioritet fəaliyyət istiqamətlərindən biridir. Bütün dünyada virusla əlaqədar olaraq iş yerlərinin kütləvi şəkildə bağlanmasının, yeni iş yerlərinin isə yaradılmasının şahidi oluruq.**

Belə bir ağır şəraitdə isə, qeyd etdiyimiz kimi, Azərbaycan dövləti xüsusi tədbirlər həyata keçirir, həm iş yerlərinin saxlanması, həm də yeni iş yerlərinin yaradılması yönündə işlər görür.

Bilirik ki, artıq neçə ildir Azərbaycanda ictimai iş yerlərinin yaradılması prosesi həyata keçirilir.

Prezident İlham Əliyev ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində keçirdiyi müşavirədə qeyd edib ki, 37 min ictimai iş yerinin açılması nəzərdə tutulsa da, onların sayı 50 min oldu. "...Ödənişli ictimai işlərə gəldikdə, biz ilin əvvəlində 37 min ödənişli iş yerinin yaradılmasını nəzərdə tuturduq. İndi bu pandemiyaya görə bunların sayı 50 minə çatıb. Amma yenə də baxın, əgər bölgələrdə xüsusilə buna əlavə tələbat yaranarsa, məlumat verin, bəlkə biz əlavə vəsait ayıraq ki, bu çətin dövr ərzində insanları işlərlə təmin edək" - deyə ölkə başçısı qeyd edib.

"Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı" İctimai Birliyinin sədri, tanınmış sosioloq Əhməd Abbasbəyli "Bakı-Xəbər"ə bildirdi ki, məmurlar Prezidentin tövsiyələrinə əməl edərək bölgələrdəki vəziyyəti dərindən öyrənməli və ehtiyac olduğu yerlərdə yeni ictimai iş yerlərinin açılmasının gerçəkləşdirilməsinə dəstək verməlidirlər.

Ə.Abbasbəylinin sözlərinə görə, pandemiyanın dünya iqtisadiyyatını çökdürdüyü, iş yerlərini qapatdığı bir dövrdə Azərbaycan dövlətinin həm iş yerlərinin saxlanması, həm də yeni ictimai iş yerlərinin yaradılması ilə bağlı həyata keçirdiyi tədbirlər həqiqətən də misilsiz bir nümunədir. "Nəzərə alsaq ki, bütün dünya pandemiya dövrünü yaşayır, o cümlədən də Azərbaycanda da pandemiyanın təsiri özünü göstərir, buna baxmayaraq, Azərbaycanda həyat donmayıb, inkişaf edir. Azərbaycanda koronavirus təhlükəsinə qarşı həyata keçirilən qabaqlayıcı tədbirlər, tətbiq edilən metodlar bu gün Rusiya, Türkiyə telekanalları tərəfindən bir örnək kimi göstərilir. Azərbaycanda SMS-lə icazə metodunu biz tətbiq etdikdən sonra başqa dövlətlər də bunu tətbiq etməyə başladılar. Rusiya da tətbiq etməyə başlayıb. Biz bir sıra məsələlərdə bütün qonşu dövlətləri, eləcə də Avropa ölkələrinin çoxunu qabaqlamışıq. Pandemiya dövründə Azərbaycan hökuməti bir sıra layihələr həyata keçirib və keçirməkdə də davam edir. Prezidentin pandemiya dövründə videokonfrans keçirməsi, burada bir sıra sahələrdəki vəziyyətə toxunması, o cümlədən də sosial sahəyə, ictimai iş yerlərinin yaradılmasına diqqət ayırması təqdirəlayiqdir. Prezident bu videokonfrans vasitəsilə cəmiyyətə, xalqa bir sıra ümidverici mesajlar göndərdi. Qeyd etdiyim kimi, onlardan biri də 50 min ictimai iş yerinin yaradılması ilə bağlı idi. Əvvəlcə 37 min ictimai iş yerinin açılması nəzərdə tutulsa da, onun indi 50 minə çatdırılması təqdirəlayiq haldır. Bu, dövlətin vətəndaşının sosial durumunu yaxşılaşdırmasına xidmət edir. Düşünürəm ki, ilin sonuna qədər yaradılacaq ictimai iş yerlərinin sayı daha çox olacaq. Çünki bununla bağlı dövlətin iradəsi, marağı var ki, daha çox ictimai iş yeri açılsın, daha çox insa işlə təmin olunsun. Bilirsiniz ki, pandemiya dövründə təkcə dünyada deyil, Azərbaycanda da işini itirənlər oldu. Dövlət işini itirən vətəndaşların məşğulluğunun təmin edilməsi üçün daha çox ictimai iş yeri yaratmaqda maraqlıdır. Bu insanlar həmin ictimai iş yerlərində ya müqavilə, ya da digər metodlarla işləyib ailələrinin güzəranını yaxşılaşdıracaqlar".

*Əhməd Abbasbəyli: "Əlaqədar qurumlar, məmurlar Prezidentin tövsiyələrinə ciddi əməl etməli və bu istiqamətdə ciddi araşdırmalar..."*




*"Dövlət işini itirən vətəndaşların məşğulluğunun təmin edilməsi üçün daha çox ictimai iş yeri yaratmaqda maraqlıdır"*

Bundan əvvəl də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin DOST mərkəzləri tərəfindən ictimai iş yerlərinin açıldığını deyən Ə.Abbasbəylinin sözlərinə görə, bu istiqamətə saysız insan cəlb edilib. İnsanların sosial vəziyyətinin düzəlməsi üçün əhəmiyyət kəsb edən ictimai iş yerlərinin çoxaldılması zəruridir. "İctimai iş sahəsinə maraq çoxdur və insanlar bu sahədə işləyib evlərinə qazanc aparırlar. Fikirləşirəm ki, ictimai iş yerlərinin yaradılmasının dövlət xətti ilə həyata keçirilməsi daha effektivdir. İctimai iş yerlərinin yaradılması insanlara stimul verir. Hazırda ictimai iş yerlərinin artırılması çox vacib məsələdir. Bu proses gedir, yəqin ki, ilin sonuna qədər ölkəmizdə daha çox ictimai iş yerinin açılmasının şahidi olacağıq. 37 min iş yerinin 50 minə çevrilməsi əsas verir ki, biz ilin sonuna qədər daha çox ictimai iş yerinin açılacağını deyək. Yaradılan həmin ictimai iş yerləri əsasən dezinfeksiya, sosial xidmətlər, yaşlı, xəstə insanlara baxmaq və s. istiqamətləri əhatə edəcək. Bu da çox vacib sahədir və bu işdə çalışmaq istəyənlər çoxdur" - deyə bildirən Ə.Abbasbəylinin sözlərinə görə, bu gün dünyanın bir çox ölkəsində ictimai işi ictimai qurumlar həyata keçirirlər.

Ə.Abbasbəyli onu da qeyd etdi ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin DOST İş Mərkəzi vasitəsilə aprel-may ayları üzrə əlavə 50 min ödənişli ictimai iş yerinin yaradılmasını həyata keçirməklə yanaşı, bölgələrdə əlavə ictimai iş yerlərinin açılması üzrə də xüsusi təkliflər, mexanizmlər hazırlanmalıdır. "Əlaqədar qurumlar, məmurlar Prezidentin tövsiyələrinə ciddi əməl etməli və bu istiqamətdə ciddi araşdırmalar aparıb yeni ictimai iş yerlərinin açılması üçün təkliflərini, layihələrini ölkə başçısına təqdim etməlidirlər. Çünki yeni ictimai iş yerlərinin yaradılması üçün dövlət böyük səylər göstərir, eyni zamanda da nümunələr ortaya qoyur" - dedə Ə.Abbasbəyli bildirdi.

***İradə SARIYEVA***

# Prezident Azərbaycan banklarına növbəti mütərəqqi yolu göstərdi - biznesə daha böyük dəstək...

**"Biz makroiqtisadi vəziyyəti qorumalıyıq. Eyni zamanda, banklar indiki şəraitdə biznesə daha böyük dəstək verməlidirlər. Mən çox şadam ki, artıq biznes kreditlərinin faizi artır, amma istehlak kreditlərinin faizi düşür. Bu, hesab edirəm ki, çox yaxşı tendensiyadır və bu, saxlanmalıdır".**

*"...ölkədə qeyri-neft sektoru sürətlə inkişaf edəcək"*

***Rəsul Cahangirli:*** *"Banklar daha uyğun faizlərlə biznes kreditləri təklif etməlidirlər ki, sahibkarlar bunda maraqlı olsunlar"*

Bunu Prezident İlham Əliyev 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan müşavirədə çıxışında deyib.

Ölkə başçısının sözlərinə görə, özünüməşğulluq proqramına çox böyük tələbat var: "Biz nəzərdə tuturduq ki, dövlət xəttilə on min insana vasitələri təqdim edək. İndi Dünya Bankı da buna qoşuldu. Onlar tərəfindən də vasitələr veriləcək, bizim banklar da verəcək. Çünki tələbat daha çoxdur. Təqribən 40-50 min tələb, yəni sifariş var. Ona görə xüsusilə indiki şəraitdə mikrobiznesin inkişafı, - indi kənd təsərrüfatında da bu sahədə işlər nəzərdə tutulur, - mütləq aparılmalıdır ki, biz biznesi qoruyaq, onlara dəstək verək və razıyam ki, artıq normal həyata qayıtmaq üçün hazırlıq işlərimizi aparmalıyıq.

Ona görə mən, bütövlükdə, bank sektorunda və makroiqtisadi sahədə görülmüş işləri müsbət qiymətləndirirəm, belə də davam edin. Bilirəm ki, siz gündəlik formatda hər şeyə monitorinq aparırsınız. Hesab edirəm ki, faiz dərəcələrinin sabit saxlanması da çox müsbət addımdır, o qədər də asan məsələ deyil".

Biznesin aktivliyini artırmaq üçün banklar fəal olmalıdırlar. Bu, birinci növbədə, sahibkarlara sərfəli şərtlərlə kreditlərin verilməsindən keçir. Yalnız bu yolla iqtisadi fəallığı yüksəltmək olar.

Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, indiki şəraitdə banklar biznes kreditlərinə önəm verməlidirlər: "Zaman-zaman banklar əsasən fiziki şəxslərə istehlak kreditlərinin verilməsinə önəm veriblər. Düzdür, banklar kommersiya qurumlarıdır və müxtəlif kredit məhsulları təklif edə bilərlər. İstehlak kreditləri də bunlardan biridir. Ancaq banklar ölkədəki biznesin inkişafını da nəzərə almalıdırlar. Biznes kreditləşməsi ölkə iqtisadiyyatı üçün olduqca vacibdir və daim nəzarətdə saxlanmalıdır. Bu ilin əvvəlində ölkə iqtisadiyyatı üzrə bəzi biznes sahələrinin kreditləşməsində yüksək artım tempi müşahidə edilmirdi.




**Ancaq sonrakı aylarda bu dəyişməyə başladı. Xüsusilə prioritet hesab edilən kənd təsərrüfatı, emal, sənaye və istehsal istiqamətləri üzrə kreditləşmədə artım müşahidə olunur. Əvvəlki illərə baxanda biznes kreditlərində faizlər bir qədər düşüb, amma bu yetərli deyil. Banklar daha uyğun faizlərlə biznes kreditləri təklif etməlidirlər ki, sahibkarlar bunda maraqlı olsunlar. O zaman ölkədə qeyri-neft sektoru sürətlə inkişaf edəcək".**

***Vidadi ORDAHALLI***

# Koronavirusla mübarizə tarixində Azərbaycan üçün ilk - sağalanların sayı yoluxanları ötdü

**Qlobal pandemiya elan edilən koronavirusa (COVID-19) qarşı dünya səfərbər olunub. Bütün ölkələr, ümumilikdə, insanlığı təhdid edən bu bəla ilə mübarizə aparır, çarə arayır. Təəssüf ki, hələlik koronavirusu məhv etməyin tibbi çarəsi tapılmayıb.**




***Adil Qeybulla:*** *"Ölkədə koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi üçün bütün imkanlar mövcuddur"*

Lakin ondan qorunmağın yolları da mövcuddur ki, bunlara əməl etməklə insan həyatını xilas etmək mümkündür. Bu baxımdan da Azərbaycan hazırkı qlobal təhlükənin öz əhalisinə təsirini mümkün qədər minimuma endirmək üçün ən səmərəli tədbirlər həyata keçirən ölkələrdən biridir.

Məlumdur ki, infeksiyaya yoluxmanın sürətini azaltmaq, insanların bir-birilə yaxın əlaqələrini minimuma endirmək məqsədilə ölkə ərazisindəki xüsusi rejim dövrü martın 31-dən aprelin 20-dək gücləndirilib. Aprelin 5-dən isə həyata keçirilən xüsusi karantin rejimi çərçivəsində ölkədə müəyyən olunan hərəkət məhdudiyyətlərinin tətbiqinə başlanıb. Həmçinin, aprelin 5-dən 20-dək yükdaşımalar istisna olmaqla, Azərbaycan Respublikası ərazisinə yerüstü və hava nəqliyyatı yolu ilə giriş-çıxış, o cümlədən, yerli hava uçuşları tam şəkildə dayandırılıb.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) rəyinə əsasən, COVID-19 pandemiyası ilə mübarizədə əsas şərtlərdən biri müayinələrin aparılması və xəstəlik hallarının vaxtında müəyyənləşdirilməsidir. Mütəxəssislər bu xəstəliyin sürətlə və geniş yayıldığını nəzərə alaraq, COVID-19-la bağlı testlərin keçirilməsinə daha çox diqqət yetirilməsinin vacibliyini qeyd edirlər. Yalnız bundan sonra yoluxan insanları təcrid etmək və onların kontaktda olduğu şəxsləri müəyyənləşdirmək mümkündür.

Bu istiqamətdə ölkəmizdə aparılan işlər nəticəsində son günlər koronavirusdan müalicə olunanların sayı yoluxanların sayını keçib. Açıqlanan son statistik rəqəmlərə əsasən, Azərbaycan Respublikasında 49 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 62 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Mütəxəssislər hesab edirlər ki, hazırda Azərbaycanda həyata keçirilən qabaqlayıcı tədbirlər infeksiyanın yayılmasını mümkün qədər məhdudlaşdırmağa və sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamağa imkan verir.

*"Müayinələrin vaxtında və əhatəli şəkildə aparılması xüsusilə həssas risq qrupları..."*

Professor, tibbi ekspert Adil Qeybulla bildirdi ki, ölkədə koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi üçün bütün imkanlar mövcuddur, o cümlədən, diaqnostik alətlər və tibbi ləvazimatlar vaxtında ölkəyə gətirilərək tibb müəssisələrinə təhvil verilib: "Müayinələrin vaxtında və əhatəli şəkildə aparılması xüsusilə həssas risq qrupları - yaşlılar, immunosupressiv xəstələr arasında COVID-19 infeksiyasının yayılmasının qarşısının alınmasında mühüm rol oynayır.

**Hazırda ölkədə əhalinin COVID-19-a dair müayinələrinin keçirilməsi ilə bağlı işlər davam etdirilir, müvafiq laboratoriyalar qurulur, habelə tibb müəssisələri zəruri ləvazimat və preparatlarla təchiz edilir. Bu da onu deməyə əsas verir ki, qısa zaman ərzində müayinə dinamikasının artması müşahidə ediləcək".**

***Günel CƏLİLOVA***

**Aparılan araşdırmalar bu gün dünya iqtisadiyyatı üçün ən böyük təhdidlərdən birinin sürətlə artan borc olduğunu üzə çıxarır. Təkcə ötən ildə qlobal dövlət borclarının məbləği 10 trilyon ABŞ dolları və yaxud 4,1% artaraq 255 trilyon dollara çatıb.**

# Dollar manat qarşısında zəifləyir - "Moody`s" agentliyi Azərbaycan valyutasını təhdid gözləmədiyini açıqladı



Bu, 2008-2009-cu illərdəki qlobal maliyyə böhranı dövrü ilə müqayisədə 87 trilyon dollar çoxdur və rekord həddir.

Beynəlxalq Maliyyə İnstitutunun "Qlobal Borc Monitoru" hesabatında da bildirilir ki, ötən ilin sonuna dövlət borclarının qlobal ümumi daxili məhsula nisbəti 322% olub. Maraqlıdır ki, bu nisbət inkişaf etməkdə olan ölkələrdə 220% təşkil edib. Yeri gəlmişkən, bu ölkələr qlobal borcda 71 trilyon dollar paya malikdir.

Beynəlxalq Maliyyə İnstitutu borcların yenidən maliyyələşdirilməsinin risqli olması barədə xəbərdarlıq da edib:"4,3 trilyon dollar inkişaf etməkdə olan bazarlarda olmaqla, ümumilikdə 20 trilyon dollar dəyərində qlobal istiqraz və kreditlərin müddəti bu il başa çatır. Beləliklə, təkcə inkişaf etməkdə olan ölkələr bu ilin sonuna kimi 730 milyard dollar məbləğində xarici valyuta borcunu yenidən maliyyələşdirməlidir". Amma məsələ burasındadır ki, cari ildə koronavirus pandemiyası üzündən vəziyyət pisləşib. Artıq 75 ölkə yeni borc üçün Beynəlxalq Valyuta Fonduna, eləcə də digər maliyyə qurumlarına müraciət edib. Bu isə cari ildə borcların daha da artacağı anlamına gəlir. Belə vəziyyətdə daha az borca girə bilmək üçün əksər ölkələr müxtəlif addımlara gedir, o cümlədən ixracı stimullaşdırmağa çalışır. Bu məqsədlə əksər ölkələr milli valyutalarını ucuzlaşdırmağa da indi xüsusi diqqət yetirir. Elə Azərbaycanın qonşularına nəzər salmaqla bunu aydın görmək olar. Bu vəziyyətdə manatın gələcəyinin necə olacağı da xüsusi maraq doğurur. Proseslər göstərir ki, iqtisadi sabitlik baxımından manatın məzənnəsində hökumət dəyişiklik olmasını istəmir. Əksinə, şərtlər manatın güclənməsini istisna etmir.

Yeri gəlmişkən qeyd edək ki, Prezident İlham Əliyev 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində keçirilən müşavirədə çıxışı zamanı bu xüsusda maraqlı fikirlər səsləndirib. İlham Əliyev qeyd edib ki, makroiqtisadi vəziyyət, manatın məzənnəsi sabitdir:"Bir müddət əhali və hüquqi şəxslər tərəfindən dollarizasiyaya doğru addımlar atıldı. Ancaq indi dedollarizasiya prosesi müşahidə olunur. Mən ictimaiyyətin diqqətini bir məsələyə də çəkmək və öz sözümü bildirmək istəyirəm. Əfsuslar olsun ki, əgər hər hansı bir ölkədə, - xüsusilə qonşu ölkələr nəzərdə tutulur, - o ölkənin milli valyutasında hansısa dəyişiklik baş verirsə, Azərbaycanda buna dərhal belə sürətli reaksiya verilir. Halbuki, buna heç bir ehtiyac yoxdur. Biz bunu bir neçə il bundan əvvəl görmüşük və məhz buna görə iki devalvasiyaya getməli olduq. Çünki bizim Mərkəzi Bankın valyuta ehtiyatları, demək olar ki, əriyirdi, süni ajiotaj yaradılmışdı və dollarizasiya pik həddə çatmışdı. İndiki şəraitdə də həmçinin. İndi koronavirus pandemiyası geniş vüsət alan kimi bəzi ölkələrin milli valyutaları tənəzzülə uğradı, ancaq hazırda Azərbaycanda bunun heç bir əsası yoxdur. Bizim kifayət qədər resurslarımız var və dövlət orqanlarının nümayəndələri bu məsələ ilə bağlı açıqlamalar vermişdilər. Ancaq bəzi adamlar şayiə yaydılar, bəzi adamlar panikaya qapıldılar. Biz valyuta bazarında dərhal fəallıq gördük və dollara tələbat artdı. İlkin mərhələdə böyük həcmdə dolların satışı da nəzərdə tutuldu. Amma sonra gördülər ki, makroiqtisadi vəziyyət sabitdir, manatın vəziyyəti sabitdir və indi bu ajiotaj yoxdur. Ona görə Azərbaycan vətəndaşlarından artıq dərəcədə xahiş edirəm, şayiələrə uymasınlar, inanmasınlar. Bizi istəməyən qüvvələr, daxili və xarici anti-Azərbaycan qüvvələr şayiə yaymaqla məşğuldurlar, insanları çaşdırmaq, insanlarda panika yaratmaq istəyirlər. Bunun üçün heç bir əsas yoxdur. Azərbaycan güclü dövlətdir və Azərbaycan rəhbərliyi vətəndaşlara hər şeyi necə varsa, elə də təqdim edir. Biz ümumi mənzərəni şişirtmirik, eyni zamanda, tam səmimiyyətlə deyə bilərəm ki, panika üçün, hansısa narahatlıq üçün bu gün heç bir səbəb yoxdur".

Azərbaycanın maliyyə sahəsində güclü mövqe sahibi olmasını beynəlxalq qurumlar da etiraf edir. Məsələn, "Moody`s" beynəlxalq reytinq agentliyinin Azərbaycanın bank sektorunun qiymətləndirilməsinə dair hesabatında deyilir ki, ölkəni hansısa təhdid gözləmir. Çünki Azərbaycan böyük valyuta ehtiyatlarına sahibdir: "Likvidlik yastığı güclü olaraq qalacaq və bu, banklara xarici şoklara qarşı mübarizədə kömək edəcək". Bundan başqa, analitiklərin fikrincə, dövlət tərəfindən banklara, xüsusilə də ölkənin ən böyük banklarına dəstək verilməsi ehtimalı yüksək olaraq qalır:"2019-cu ilin sonunda ÜDM-nin 90%-ni təşkil edən Azərbaycan Dövlət Neft Fondunda toplanan ümumi ehtiyatlarla hökumətin iqtisadiyyata və ümumi kredit portfeli ÜDM-in 19%-ni təşkil edən bankçılıq sisteminə dəstək vermək üçün yaxşı imkanları var".

Bundan başqa xatırladaq ki, ABŞ özü də dolları ucuzlaşdırmaq istiqamətində addımlar atır. Ölkədə büdcə kəsirinin və dövlət borcunun artması fəlakətli həddədir. Hazırda borcun həcmi 23 trilyon dolları keçir. Amerikanın "AllianceBerstein" investisiya şirkətinin analitiklərinin bildirdiyinə görə, 2026-cı ilədək dövlət borcu 30 trilyon dolların dək arta bilər. Bunu önləmək və ölkənin ixrac qabiliyyətini qorumaq üçün ABŞ dolları ucuzlaşdırmaq istiqamətində fəaliyyətini artırıb. Onu da qeyd edək ki, ABŞ koronavirusa yoluxma hallarının sayına görə dünyada birinci yerə çıxıb. Bu durumda iqtisadi zərərlərin artımı dollara da təsirsiz ötüşmür. Artıq dünyada bir çox mərkəzi banklar yenidən dollar ehtiyatını qızılla əvəzləməyə başlayıb. Belə vəziyyət dünya birjalarında dollar həcminin artımına və beləliklə də dəyər itirməsinə səbəb olur. Yaranmış durumda ölkəmizdə də dolların məzənnəsində dəyişiklər proqnozlaşdırılır. Əvvəla, proses göstərir ki, əhalinin dollara tələbi azalıb.

**Bu durumda ilin sonuna kimi Dövlət Neft Fondu 2020-ci il üzrə büdcə xərclərinin büdcədə təsdiq olunan səviyyədə icra olunması üçün təxminən 4 milyard dollar həcmində vəsaitin hərraclar vasitəsilə satışa çıxarılmasına hazırlaşır. Bu isə dövriyyədə dolların xüsusi çəkisinin artması deməkdir. Nəzərə alaq ki, bunlar idxalın da əhəmiyyətli dərəcədə azaldığı bir vaxtda baş verir. İdxalın azalması da dollar tələbini xeyli aşağı salıb. Məhz bütün bunlar fonunda hökumətin müdaxiləsi olmasa, dolların əhəmiyyətli dərəcədə ucuzlaşması qaçılmaz sayılır.**

***Ramil QULİYEV***

# Sosial xidmət işçilərinin özlərinin də təminatı ikiqat yaxşılaşdırıldı - Azərbaycanda növbəti sosial layihə...

*Əli Əlirzayev: "Sosial işçilərin əməkhaqlarının bu şəkildə qaldırılması..."*

**Cəmiyyətin elə təbəqələri, elə qrupları var ki, onların fəaliyyətinin stimullaşdırılmasına, zəhmətlərinin qiymətləndirilməsinə hər zaman zərurət var. Azərbaycan dövləti mütəmadi olaraq ölkə vətəndaşlarının sosial rifahının gücləndirilməsi üçün müxtəlif addımlar atır, sosial paketlər, sosial layihələr gerçəkləşdirir.**

Əlbəttə, sosial sahədə qəbul edilən hər bir qərar, həyata keçirilən hər bir layihə əsasən cəmiyyətin həssas qruplarının dayanıqlığının, onların sosial-maddi rifahının yüksəldilməsinə yönəlib.

Azərbaycan dövlətinin son illər həyata keçirdiyi sosial paketlərin davamlılığı təmin edilir və müxtəlif sahələri əhatə edən yeni sosial layihələr gerçəkləşdirilir. Dövlətin həyata keçirdiyi növbəti sosial layihə isə sosial xidmət işçilərinin əməkhaqlarının artırılması barədədir.

Məlum olduğu kimi, Prezident İlham Əliyevin "Xüsusi karantin rejimi dövründə sosial xidmətlər göstərilməsində iştirak edən işçilərin sosial müdafiəsinin gücləndirilməsi haqqında" Sərəncamı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun (DSMF) rayon (şəhər) şöbələrində və tabeliyindəki sosial xidmət müəssisələrində çalışan işçilərin əməkhaqlarına aylıq vəzifə (tarif) maaşının 1 (bir) misli miqdarında müddətli əlavə müəyyən edilməsi nəzərdə tutulur.

Nazirlikdən mətbuata verilən məlumata görə, sərəncam DSMF-nin rayon (şəhər) şöbələrindəki 1 400 nəfər və fondun tabeliyindəki sosial xidmət müəssisələrində çalışan 600 nəfər, ümumilikdə, 2 000 nəfər sosial xidmət işçisini əhatə edir.

Qeyd edək ki, xüsusi karantin rejimi dövründə infeksiyaya yoluxma risqi yüksək olan yaşı 65-dən yuxarı şəxslərin pandemiyadan qorunması məqsədilə onların evdən çıxmaları qadağan edilib. Bununla əlaqədar dövlət başçısının göstərişinə əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bütün sosial xidmət işçiləri səfərbər edilməklə, gücləndirilmiş iş rejimi şəraitində yaşı 65-dən yuxarı tənha yaşayan şəxslər evlərində gündəlik sosial xidmətlərlə təmin olunurlar.

Hazırda bu kateqoriyadan olan 15 000-dən çox tənha yaşlıya evlərində sosial xidmətlər (ev təsərrüfatı ilə bağlı işlərdə, əsas tələbat mallarının, dərman vasitələrinin alınmasında, kommunal ödənişlərin edilməsində və s.) göstərilir. DSMF-nin 9 sosial xidmət müəssisəsində isə 1 000-dən çox şəxs stasionar şəraitdə reabilitasiya yönümlü sosial xidmətlərlə təmin olunur.

Tanınmış iqtisadçı-alim, professor Əli Əlirzayev "Bakı-Xəbər"ə bildirdi ki, sosial işçilərin əməkhaqlarının qaldırılması barədə Prezidentin verdiyi müvafiq sərəncam bu istiqamətdə növbəti sosial dəstək layihəsidir. Ə.Əlirzayevin sözlərinə görə, dövlət daim cəmiyyətin həssas qruplarının və onlara baxan, onlarla məşğul olan sosial işçilərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində davamlı sosial layihələr həyata keçirir. "Sosial işçilərin əməkhaqqının ikiqat artırılması ilə bağlı Prezidentin imzaladığı sərəncam bu sahədə çalışan insanların sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir. Bu gün ölkəmizdə sosial işçilər, sosial işlə məşğul olan insanlar çoxdur. Əlillərə, kimsəsiz uşaqlara, ahıllara, xəstələrə xidmət edən sosial işçilərin işi daha risqli və zəhmətlidir. Onlar bəzən xəstələrə baxarkən xəstəlik də keçirə bilərlər. Bu baxımdan, sosial işçilərin maddi durumunun yaxşılaşdırılmasına, onların hər cür qayğı ilə əhatə olunmasına zərurət var və gördüyümüz kimi, dövlət də bu istiqamətdə layihələr həyata keçirir. Bu gün o insanların maddi xərcləri, ehtiyacları artır. Ona görə də onların daha çox əməkhaqqı alması zəruri idi. Sosial işçilərin əməkhaqlarının daha da canla-başla, daha da ürəklə işləməsinə stimul yaradır. Xəstələrə, qocalara, tənha ahıl insanlara, köməyə ehtiyacı olan şəxslərə dayaq olmağın özü böyük fədakarlıqdır. Bizim sosial işçilər bu mənada çox böyük fədakarlıq edirlər. Sosial işçilərin əməkhaqlarının bu şəkildə qaldırılması indiki şəraitdə onların həyat səviyyəsinin yüksəldilməsinə, sosial müdafiəsinin gücləndirilməsinə, fədakar əməklərinin stumullaşdırılmasına xidmət edir. Sosial işçilər yaxından hiss edirlər ki, onların əməyinə, zəhmətinə dövlət dəyər verir".



*"Sosial işçilər yaxından hiss edirlər ki, onların əməyinə, zəhmətinə dövlət dəyər verir"*

Bunun bir humanist addım olduğunu deyən Ə.Əlirzayev hesab edir ki, dövlət bununla cəmiyyətin bütün həssas qruplarının, eləcə də sosial işçilərin daim sosial müdafiəsini diqqətdə saxladığını göstərir. Ə.Əlirzayevin sözlərinə görə, sosial işçilərlə yanaşı, digər qrupları əhatə edən sosial layihələr qəbul ediləcək.

**Onun fikrincə, bu ağır şəraitdə insanların əsas güvənc yeri dövlətdir və onlar hər zaman dövlətin dəstəyinə arxayındırlar: "Hesab edirəm ki, dövlətin sosial layihələri bundan sonra da davamlı olacaq və layihələr digər sosial qruplardan olan insanları da sevindirəcək. Azərbaycan dövləti sosial dövlət kimi hər zaman əhalinin həssas qruplarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində layihələr həyata keçirir, sosial paketlər qəbul edir. Bu da vətəndaş məmnunluğu ilə qarşılanır".**

*İradə SARIYEVA*

№ 58 (4189) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

16 APREL 2020-ci il

www.baki-xeber.com



# Bu geyimlər virusa yol açır...

**Mütəxəssislər koronavirus zamanı geyim seçiminə diqqət etməyi məsləhət görüblər. Çünki parçanın xüsusiyyətləri yeni tip virusa təsir göstərir.**

"Milli.Az" xəbər verir ki, materialın sıxlığı nə qədər yüksək olsa, patogenin içəriyə daxil olması və insana çatması ehtimalı azalır. Mikrobioloqlar pandemiya zamanı atlaz və tviddən olan paltarları geyinməyi məsləhət görüblər və qeyd ediblər ki, evə gəldikdən dərhal sonra onları dezinfeksiya etməyi unutmayın. Lakin məxmər və süni zamşa kimi parçadan olan paltarlar vəziyyət düzələnə qədər təxirə salınmalıdır, çünki belə parçalar mikroorqanizmləri özünə çəkə bilər. Plastik və metal bəzək elementləri bakteriyalar üçün əlverişli yer ola bilər, çünki virus onlarda iki günə qədər yaşamaq qabiliyyətinə malikdir.

"VetUnion" Moskva laboratoriyasının elmi-tədris şöbəsinin müdiri Sergey Konyayevin "İzvestiya"ya verdiyi məlumata görə, virus maska hazırlanan materialdan asanlıqla yapışır. Eyni zamanda, virus yumşaq parça içərisinə "yapışır" və "uça bilmir". Odur ki, evə qayıdan kimi paltarı dərhal dəyişmək və eyvanda saxlamaq tövsiyə olunur. Çünki ultrabənövşəyi şüalar dezinfeksiya mənbəyidir. Virusun saçlara yapışa biləcəyini unutmayın. Buna görə papaq taxmaq tövsiyə olunur. "Nəzəri cəhətdən, gözə və ya ağıza çirklənmiş saçın daxil olması infeksiyaya səbəb ola bilər, odur ki, çöldə gəzdiyiniz zaman onu yığmaq daha yaxşıdır", - deyə Moskva Fizika və Texnologiya İnstitutunun biofizika dosenti, RAS Fizika və İqtisad İnstitutunun elmi işlər üzrə direktor müavini Oleq Batışev açıqlamasında qeyd edib.



## Dünyada yeni arı növü kəşf edildi

**Alimlər Panama meşəsində yarımerkək və yarımdişi olan arı kəşf ediblər.**

"Deyerler.org" bildirir ki, tədqiqatçılar arını Panamanın Barro Kolorado adasının meşəsində aşkarlayıblar. Mütəxəssislər cücünün sol tərəfinin fizioloji olaraq erkək olduğunu, həmin tərəfdə kiçik, incə çənə sümüyü, uzun anten, daha az tüklü, zəif və həssas arxa ayağının olduğunu vurğulayıblar. Böcəyin sağ tərəfi isə daha qısa anten, önə çıxmış çənə sümüyü, qalın və tüklü arxa ayağı ilə diqqət çəkir. Qeyd olunur ki, kəşf ilə bağlı təfərrüatlı məqalə "Journal of Hymenoptera" jurnalında dərc edilib.

## 26 ildir başında qalmış bıçaq çıxarıldı...

**76 yaşlı kişi 26 il əvvəl oğruların hücumu zamanı başından bıçaqla zərbə almışdı, bıçaq sapından qırılıb kəllədə qalmışdı.**

"Medicina.az" bildirir ki, həkimlər 76 yaşlı Duoricini əməliyyat edərək, onun başından bıçaq çıxarıblar. Yaşlı kişi başında ağrıların olması şikayəti ilə həkimə müraciət edib. Metal bıçaq kişinin sağ gözündə görmə qabiliyyətini pozub və onun sağ əli ilə ayağı iflic vəziyyətə düşüb. Həkimlərin keçirdiyi uğurlu əməliyyatdan sonra xəstənin gözü açılıb və o, sərbəst yeriyə bilib.

## Ən çox evdə qalan ölkələr...



**İnsanların sosial məsafə saxlamağa və evdən çıxmamağa çağırıldığı bu dönəmdə "Google" onların hərəkət aktivliklərini göstərən hesabat açıqlayıb.**

"Ted.az" bildirir ki, hesabata görə, alış-veriş və əyləncə mərkəzlərindən ən sıx istifadə edən ölkə Amerika Birləşmiş Ştatları olub. Vətəndaşları işə ən çox gedən ölkə Hollandiya, ən çox evdə qalan dövlət isə İtaliya olub. İspaniyada ictimai nəqliyyatdan ən az istifadə edildiyi açıqlanıb. Burada sözügedən mərkəzlərin fəaliyyətində 94 faiz zəifləmə müşahidə olunub. Hesabata görə, alış-veriş, əyləncə mərkəzlərindən ən az istifadə İtaliya və İspaniyada qeydə alınıb. Amerikada küçədə hərəkət edən insan sayında 47 faiz azalma müşahidə edilib. Türkiyədə bu göstərici 75 faiz olub. Amerika ictimai nəqliyyatdan ən çox istifadə edən ölkə elan olunub. İtaliya parklarındakı hərəkətlilik 90 faiz aşağı düşüb. Bu siyahıda İtaliyanı 89 faiz göstərici ilə İspaniya, 82 faizlə isə Fransa təqib edir. İtaliya vətəndaşlarının aptekə belə çox az getdikləri məlum olub. "Evdə qal" kampaniyasına ən çox riayət edən ölkə də 24 faiz göstərici ilə İtaliya olub. İspaniyada evdə qalma faizi 22, Türkiyədə isə 17 faiz artıb.

## Tısbağanı gəzdirmək üçün karantin rejimini pozdu

**İtaliyanın paytaxtı Romada polislər karantin qaydalarını pozan qadını cərimələyiblər.**

"Trend" bildirir ki, 60 yaşlı qadın polis əməkdaşlarına evdə saxladığı tısbağanı gəzdirmək üçün bayıra çıxdığını deyib. Polislər qadını cərimələdikdən sonra evə qayıtmağını tələb ediblər. Qeyd edək ki, bu günədək İtaliyada 159 mindən çox şəxs koronavirusa yoluxub, ölənlərin sayı 20 mini keçib.





**Qoç** - İşdə problemlər sizin öz günahınız ucbatından yaranır, çünki işdən başqa hər şey barədə fikirləşirsiniz. Hesablarda səhv etməniz mümkündür, danışıqlarda pərtlik yarana bilər, həmçinin yerinə yetirə bilməyəcəyiniz vədlər verə bilərsiniz. Kütlə qarşısında çıxışlardan çəkinin.



**Buğa** - Gün sizi əsl mənəvi bağların birləşdirdiyi insanlarla ünsiyyət üçün daha münasibdir. Səmimi etiraflar edə, sizi çoxdan narahat edən problemlərdən danışa bilərsiniz. Alış-verişə çıxmaq məsləhət deyil, pul sizə hələ lazım olacaq.



**Əkizlər** - İşləmək üçün yaxşı vaxtdır və sizə böyük uğurlar vəd edir. Vaxtında qəbul edilmiş düzgün qərar rəqiblərinizi qabaqlayaraq karyera pillələri ilə irəliləməyinizə imkan yaradacaq.



**Xərçəng** - Maliyyə məsələlərinin həlli və kommersiya fəaliyyəti uğurlu olacaq. Xərçənglər çətin situasiyalarda düzgün qərarlar qəbul edir, rəqiblərinə (hətta onlar hiyləgər metodlardan istifadə etsələr belə) üstün gəlirlər.



**Şir** - Şəxsi həyatınızda da müsbət tendensiyaların təsiri güclüdür: yaxşılığa doğru dəyişiklik mümkündür. Təşəbbüs göstərə, hisslərinizi etiraf edə, nəyi istəyirsinizsə, məhz onu edə bilərsiniz.



**Qız** - Səhər uğursuz başlanır, bunun günahkarı təkcə şərait deyil, elə siz özünüzsünüz. Düzgün qərar vermək çox çətindir. Şəxsi və məişət problemləri sizi işinizdən ayırır, elə səhvlər edirsiniz ki, müstəqil olaraq onları düzəltməyiniz mümkün olmur.



**Tərəzi** - Hərdən müsbət tendensiyalar özünü göstərir, sizin də əsas vəzifəniz yaxşı məqamlardan vaxtında və düzgün istifadə etməkdir. Bunun üçün bəzi vərdişlərinizdən əl çəkmək lazım gələcək, amma peşman da olmayacaqsınız.



**Əqrəb** - Çətinliklər məhz sizin onları heç gözləmədiyiniz yerdə yaranır. Məsələn, dəstəyinə və anlayışına güvəndiyiniz adam özünü tamamilə başqa cür apararaq sizi incidə bilər.



**Oxatan** - Əhəmiyyətsiz məişət problemlərini də gərəksiz yerə ürəyinizə salırsınız. Mənəvi tarazlığınızı bərpa etmək üçün təklikdə sakit bir məşğuliyyətlə başınızı qatmaq gərəkdir.



**Oğlaq** - Maliyyə çətinlikləri mümkündür: bunların öhdəsindən gəlmək olar, sadəcə, məsələyə düzgün yanaşmaq lazımdır. Bir çox Oğlaqlar bu gün bəzi ailə problemlərini yoluna qoya, qohumları ilə münasibətləri düzəldə bilərlər.



**Dolça** - Xırda, amma yersiz anlaşılmazlıqlar çox olacaq, irəliləməyinizə maneçilik törədəcək. Ətrafınızdakılarla dil tapmaq çox çətindir - başqalarının özünə həddsiz inamı sizi qıcıqlandırır. Bu arada, elə siz özünüz də özünüzə çox güvənirsiniz.



**Balıqlar** - Çətin, amma məhsuldar gündür. Bəzən mənfi tendensiyaların təsiri özünü göstərir, amma siz onlarla mübarizə üçün qüvvənizi əsirgəmir və pis vəziyyətdən çıxış yolunu tez tapırsınız.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## "Nar" abunəçilərinin nəzərinə

**"Azerfon" MMC tərəfindən təqdim edilən "Nar Home" xidmətinə 30.04.2020-ci il tarixindən etibarən "İnternet xidmətlərinin göstərilməsi haqqında" abunə müqaviləsinin müvafiq bəndinə əsasən xitam veriləcək.**

İnternet xidmətlərinin fasiləsizliyinin təmin edilməsi üçün müqaviləyə xitam veriləcək tarixdən etibarən eyni şərtlər və qiymətlərlə, xidməti "CityNet" ticarət nişanı ilə tanınan "Uninet" MMC-dən əldə etmək mümkün olacaq. Bunun üçün "1827" qısa nömrəsindən daxil olan məlumat mesajına cavab olaraq "1" yazıb göndərmək kifayətdir. Əgər razı deyilsinizsə, "2" yazıb göndərə bilərsiniz. Ətraflı məlumat əldə etmək üçün https://www.nar.az/ev-interneti/ səhifəsinə keçid edə bilərsiniz.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.